YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
2 may 2025-ci il, cümə
№ 074 (6902)
Qiyməti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycan Qlobal Cənubun inkişafında yeni mərhələ formalaşdırır



## Yeni nizamın həmmüəllifi - barışdırıcı missiya, iqtisadi platforma, siyasi sabitləşdirici...

## Hərtərəfli əməkdaşlıq üçün yeni başlanğıc...

Bax səh. 2

## Siyasi münasibətlərin inkişafında mühüm addım

Bax səh. 3

## Regional inkişafa güclü dəstək

Bax səh. 2



Milli Məclisin iclasında...

## Parlament Kamran Əliyevin Azərbaycanın Baş prokuroru vəzifəsinə təyin edilməsinə razılıq verib

Bax səh. 4

## Uzunmüddətli etibarlı əməkdaşlıq modeli

Azərbaycan və Böyük Britaniya iqtisadi sahədə əməkdaşlığı gücləndirmək, yeni layihələr icra etmək məqsədilə yeni strateji kurs müəyyən edib. Tərəflər enerji, sənaye, qarşılıqlı investisiya, nəqliyyat, aviasiya, rəqəmsal tikinti və mina təmizləmə sahələrində əməkdaşlığı artırmaq məqsədilə ikitərəfli ticarət və investisiya platformasının yaradılması imkanlarını müəyyənləşdirib. Londonda keçirilən Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali...

Bax səh. 6



## Müştərək yol xəritəsi imzalandı...

Azərbaycan - Küveyt arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın 4-cü iclası Bakıda keçiriləcək

Bax səh. 3

## Azərbaycan-Səudiyyə Ərəbistanı: İqtisadi əməkdaşlığın yeni gündəliyi

Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər-Riyad şəhərində Azərbaycan Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnologiya, mədəniyyət, idman və gənclər sahələrində əməkdaşlığa dair Müştərək Komissiyanın 8-ci iclası keçirilib. Komissiyanın həmsədrləri Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov və Səudiyyə Ərəbistanının investisiya naziri Xalid bin Əbdüləziz Əl-Falih iki ölkə arasında mövcud əməkdaşlığın cari vəziyyəti və gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparıblar. Tərəflər enerji sektorunda əməkdaşlıq, Azərbaycanın qeyri-neft sənayesi məhsullarının Səudiyyə Ərəbistanına ixracının genişləndirilməsi, turizm sahəsində birgə layihələrin həyata keçirilməsi və digər sahələrdə imkanları dəyərləndirib.

Müştərək Komissiyanın tədbiri çərçivəsində Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının 6-cı iclası da keçirilib ki, hər iki tərəfdən rəsmi şəxslər və iş adamları, o cümlədən sənaye, kənd təsərrüfatı, inşaat, əczaçılıq, xidmət, memarlıq və dizayn, logistika, turizm, bərpa olunan enerji kimi sektorlarda fəaliyyət göstərən Azərbaycan şirkətlərinin və biznes assosiasiyaların 30-a yaxın nümayəndəsi iştirak edib. Hər iki ölkənin işgüzar dairələri arasında ticarət...

Bax səh. 4

## Daha əhatəli hesabatlar hazırlanacaq

Aprelin 28-də Beynəlxalq Valyuta Fondunun (BVF) Mərkəzi Asiya, Qafqaz və Monqolustan üzrə Regional İnkişafa Dəstək texniki dəstək missiyasının Azərbaycana səfəri başlayıb. Mayın 2-dək davam edəcək missiya zamanı dövlət təsisatları üzrə maliyyə əməliyyatlarının, balans məlumatlarının mərhələli şəkildə hesabatlara daxil edilməsi, bununla da dövlətin maliyyə vəziyyəti ilə bağlı daha əhatəli hesabatın hazırlanması əsas müzakirə mövzularını təşkil edəcək.

Səfər çərçivəsində Maliyyə Nazirliyi ilə yanaşı, Mərkəzi Bank, Qarabağ Dirçəliş Fondu, Mənzil İnşaatı Dövlət Agentliyi, İpoteka və Kredit Zəmanət Fondu və Sosial Xidmətlər üzrə Dövlət Agentliyi ilə görüşlərin keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, maliyyə hesabatlarının müvafiq təlimatın prinsiplərinə uyğun qaydada tərtib edilməsi müasir dövrün əsas çağırışlarındandır. Bu məqsədlə qurumlar arasında koordinasiyalı işin təşkili və potensialın artırılması xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar BVF tərəfindən hər il aidiyyəti qurumların iştirakı ilə texniki yardım missiyaları təşkil edilir. Missiyalar çərçivəsində hesabatların tərtibinə dair problemlər araşdırılır, onların aradan qaldırılması, eləcə də məlumat mübadiləsi ilə bağlı müzakirələr aparılır.

**Maliyyə statistikasının vəziyyəti qənaətbəxşdi...**

Bax səh. 6



## BCM-ni tərk edən 3-cü ölkə...

Bax səh. 7




## Saziş imzalandı - ABŞ nə vəd edir?

Bax səh. 7

# Hərtərəfli əməkdaşlıq üçün yeni başlanğıc...

## Azərbaycan-İran münasibətləri inkişaf edir

Bu günlərdə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın böyük nümayəndə heyəti ilə Azərbaycana səfərə gəlməsi, bu səfər çərçivəsində iki ölkə arasında çoxsaylı sənədlərin imzalanması, dövlət başçılarının mətbuata verdikləri bəyanatlarda və digər tədbirlərdə ifadə etdikləri fikirlər mühüm bir reallığı ortaya qoydu: Hər iki tərəf qarşılıqlı münasibətlərin dərinləşməsinə güclü siyasi iradə ortaya qoyur. Liderlərin bildirdikləri kimi, əməkdaşlığı müxtəlif istiqamətlərdə genişləndirmək üçün böyük imkanlar var və hər iki dövlətin maraqları naminə bu imkanlardan istifadə olunmalıdır.

### Yaxın qonşuluğa, ortaq dəyərlərə və bugünkü reallıqlara əsaslanan münasibətlər

Azərbaycan və İran prezidentlərinin bir-birinə "əziz qardaşım" deyə xitab etmələri, ikitərəfli əlaqələri qardaşlıq münasibətləri kimi səciyyələndirmələri xüsusi önəm daşıyır. Bu, iki dövlət və xalq arasındakı yaxınlığın, səmimiyyətin necə yüksək səviyyədə olduğunun əyani təsdiqidir. Bir sıra ölkələr arasında qurulan əlaqələr hansısa keçici maraqlara əsaslanır və təbii ki, burada uzunömürlü münasibətlərdən danışmaq mümkün deyil.

Azərbaycan və İranın münasibətləri isə vazkeçilməz siyasi, iqtisadi məqamlara əsaslanmaqla yanaşı, həm də tarixi bağlara söykənir. Coğrafiya yaxın olduğu kimi, Azərbaycan və İran xalqlarının keçdikləri yolda da oxşarlıqlar çoxdur. Tarixi əlaqələr, etiqad birliyi, mədəni köklər, milli-mənəvi dəyərlər, xalqların həyat tərzindəki oxşarlıqlar və bu kimi digər cəhətlər dostluğumuzun möhkəm və etibarlı olmasına, necə deyərlər, təbii təminatlar yaradır. İki xalq arasında qohumluq, ailə münasibətləri var ki, bu da dövlətlərarası əaqələrə güclü impuls verir. Mətbuata bəyanatında bu kimi məqamlara diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb: "Xalqlarımız əsrlər boyu mehribanlıq, qardaşlıq şəraitində yaşayıb. Bu gün dövlətlərarası münasibətlərimiz bu möhkəm təməl üzərində inkişaf edir. İran Prezidentinin Azərbaycana rəsmi səfəri əlaqələrimizin yüksək səviyyədə olmasının təzahürüdür".



### Böyük siyasətçi Heydər Əliyev tərəfindən əsası qoyulan əlaqələr

Azərbaycan-İran əlaqələrinin təməli böyük siyasətçi Heydər Əliyev tərəfindən qoyulub. Bu, Heydər Əliyevin blokada şəraitində yaşamaq məcburiyyətində qalan Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrə təsadüf edir. O dövrdə Naxçıvanın vəziyyəti çox ağır idi, ən zəruri tələbat malları belə tapılmırdı. Belə kritik dönəmdə Heydər Əliyev öz nüfuzundan və imkanlarından istifadə etməklə İranla əlaqələr qurmağa nail oldu. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında imzalanmış müxtəlif sahələrdə əməkdaşlığa dair 16 maddədən ibarət protokola əsasən, muxtar respublikanın kommunikasiya xətlərinin İran ərazisindən keçirilməsi, bir il ərzində qaz kəmərinin İran hökumətinin vəsaiti hesabına çəkilməsi, ayda 100 ton maye qazın, təqribən, 30 meqavat gücündə elektrik enerjisinin verilməsi kimi həyati vacib məsələlər həll olunub.

Böyük siyasətçi Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə qayıtdıqdan sonra İranla ikitərəfli əlaqələri yeni müstəviyə qaldırıb. 1993-cü ilin oktyabr ayında "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və qardaşlıq münasibətlərinin prinsipləri haqqında" 22 maddəlik memorandumla yanaşı, siyasi, ticarət, iqtisadi, elmi-texniki, mədəni və humanitar əlaqələrə dair 14 sənəd imzalanıb.

Sonrakı mərhələdə isə Azərbaycan-İran münasibətləri Prezident İlham Əliyev tərəfindən dünyada və regionda yaranmış yeni siyasi-iqtisadi gerçəkliklər nəzərə alınaraq uğurla davam etdirilib. İki ölkə arasında siyasi dialoq yüksək səviyyədədir.

Şübhəsiz ki, Məsud Pezeşkianın ölkəmizə uğurla baş tutan səfəri ikitərəfli münasibətlərə yeni bir başlanğıc gətirəcək. Öz növbəsində İran Prezidenti də səfərin nəticələrinə böyük inamla yanaşdığını bildirib. O, Azərbaycana etdiyi rəsmi səfəri başa vurduqdan sonra "X" sosial şəbəkədəki platformasında Prezident İlham Əliyevə təşəkkürünü ifadə edən mesaj yazıb. Həmin paylaşımda oxuyuruq: "Bakıda hörmətli qardaşım Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə anlaşmamız olub və sənədlər imzalamışıq. Bu səfər etimadın artırılmasına, elmi, iqtisadi, mədəni və təhlükəsizlik sahələrində hərtərəfli əməkdaşlıq üçün yeni üfüqlərin açılmasına müqəddimədir.

Qonaqpərvərliyə görə cənab İlham Əliyevə təşəkkür edirəm".

### Üçüncü ölkələrin Azərbaycan-İran münasibətlərinə müdaxiləsi yolverilməzdir

Azərbaycanın və İranın yerləşdiyi çoğafiyada ayrı-ayrı güc mərkəzlərinin maraqları toqquşur. Xüsusilə resurslarla zəngin olması, Asiya ilə Avropa arasında mühüm nəqliyyat bağlantılarının üzərində yeləşməsi bu coğrafiyanın cəlbediciliyini atırır. Bütün bu kimi reallıqlar nəzərə alınmaqla ayrı-ayrı güc mərkəzlərinin regionda maraqlarının daha çox dərəcədə təmin olunması uğrunda açıq və yaxud gizli marafona qoşulduqları fikrini tam cəsarətlə ifadə edə bilərik.

Kənar güclərin regionla bağlı məkrli planlar qurduqları ortadadır. Bu ssenarilərin reallaşmasına imkan vermək olmaz. Təsadüfi deyildir ki, Azərbaycan və İran 3+3 platformasını dəstəkləyir. Xatırladaq ki, bəhs olunan format çərçivəsində Tehranda da görüş keçirilib. M.Pezeşkianın ölkəmizə səfəri çərçivəsində baş tutan tədbirlərdə liderlər bu mövqeyə sadiq olduqlarını bir daha vurğulayıblar. Ayıqsayıq olmalıyıq. Azərbaycan-İran münasibətlərinin möhkəmlənməsinə qarşı 3-cü dövlətlərin müdaxiləsinə qətiyyən yol vermək olmaz. Yeri gəlmişkən, onu da vurğulayaq ki, İranın 12 dövlətlə quru sərhədləri var. Ən etibarlı sərhəd isə Azərbaycanladır. Xatırladaq ki, 44 günlük müharibədən sonra - 2020-ci il noyabrın 16-da Prezident İlham Əliyev sərhəd bölgəsində səfərdə olub və Xudafərin körpüsünü "Dostluq körpüsü" adlandırıb. Xudafərin adi bir körpü deyil. O, əbədi olaraq dostluq, qardaşlıq körpüsü kimi qalmalıdır.

*Mübariz FEYİZLİ*

# Regional inkişafa güclü dəstək

Son illərdə Azərbaycanda iqtisadiyyatın mühüm istiqamətlərindən birini təşkil edən aqrar sektorda davamlı olaraq uğurlar əldə olunur. Belə ki, innovativ yanaşmaların tətbiqi yolu ilə mövcud əkin sahələrindən səmərəli istifadə olunması sayəsində istehsal genişənir, yerli məhsullarla özünütəminat səviyyəsi yüksəlir, məhsullarımız milli brend altında beynəlxalq sərgilərdə uğurla təmsil olunur.

O cümlədən regionlarda özəl sahibkarlıq subyektləri tərəfindən dövlət dəstəyi ilə yeni təsərrüfatların yaradılması geniş vüsət alıb. Elə bu günlərdə Prezident İlham Əliyev Qusar rayonunda "İsmikhanlı" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) bağçılıq və soyuducu anbar kompleksi ilə tanış olub. Verilən məlumata görə, cəmiyyət tərəfindən Qusarda 330, Ağsuda isə 30 hektar ərazidə ən son texnologiyalar əsasında intensiv bağlar salınıb. Hazırda burada 230 hektar sahədə alma, 35 hektarda armud, 26 hektarda şaftalı, 21 hektarda nektarin, 18 hektarda isə gilas ağacları əkilib.

### Aqrar sektorda yeni yanaşmaların tətbiqi



Ölkəmizdə belə müasir təsərrüfatların yaradılmasını bir sıra nöqteyi-nəzərdən dəyərləndirmək mümkündür. Bu sırada aşağıdakı mühüm amilləri xüsusi qeyd edə bilərik:

-Regional inkişafın diqqət mərkəzində saxlanılması,

-Aqrar sahədə inkişafın sürətləndirilməsi,

-Kənd təsərrüfatı məhsullarına olan daxili tələbatın yerli istehsal hesabına ödənilməsi,

-Ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi,

-İxracyönümlü məhsulların istehsalının artırılması,

-Kiçik və orta sahibkarlığın inkişafı və s.

Yeni yanaşmaların tətbiqi yolu ilə müasir iri təsərrüfatların yaradıması regionalarda iqtisadi aktivliyin artmasına gücü təkan verməklə yanaşı, aqrar sektorda məhsuldarlığa da müsbət təsir göstərir. Ölkəmizdə müasir iri təsərrüfatların yaradılması təşəbbüsü zamanında Prezident İlham Əliyevdən gəlib. Dövlətimizin başçısının qətiyyətli siyasi iradəsi əsasında regionlarda müasir infrastrukturun qurulması, o cümlədən enerji təminatının gücləndirlməsi, nəhəng su anbarlarının inşası, yeni yolların çəkilməsi iri təsərrüfatların yaradılması üçün münbit zəmin frmalaşdırıb. İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyindən (İZİA) 2024-cü ilin yekunları üzrə verilən məlumata əsasən, respublikamızda 2-si dövlət, 22-si özəl olmaqla ümumilikdə 24 aqropark qeydiyyata alınıb. 22 rayon üzrə 66,3 min ha ərazidə yerləşən bu aqroparklardan 23-ü fəaliyyətə başlayıb, 1 aqroparkda isə tikinti-quraşdırma işləri aparılır. Aqroparklardan 6-sı heyvandarlıq, 6-sı meyvəçilik, 11-i əkinçilik, 1-i isə çeşidləmə, qablaşdırma və logistika üzrə ixtisaslaşıb. Aqroparkların ümumi layihə dəyəri 1,1 mlrd. manat təşkil edir ki, bunun da faktiki olaraq 0,9 mlrd. manatı özəl investisiya şəklində layihələrin reallaşdırılmasına yatırılıb. Qeydiyyata alınan aqroparklarda 3720 nəfər daimi işlə təmin edilib, 4878 nəfər isə mövsümi işlərə cəlb olunub. Növbəti mərhələdə əlavə olaraq 1600-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

### Regionlarda özəl bölmənin maliyyə təminatı gücləndirilir

Qusar rayonunda "İsmikhanlı" Məhdud Məsuliyyətli Cəmiyyətinin bağçılıq və soyuducu anbar kompleksinin yaradılması ökəmizdə özəl sektorun dəstəklənməsinə əyani nümunədir. Məlum olduğu kimi, son iyrimi ildən artıq müddətdə Prezident İlham Əliyevin imzaladığı sənədlər əsasında bilavasitə respublikamızda sahibkarlıq mühitinin daha da optimallaşdırlmasını hədəfləyən islahatlar aparılıb. Bunun da nəticəsində bütün respublika üzrə sahibkarlıq subyektlərinin sayı əhəmiyyətli dərəcədə artıb.

Həmçinin sahibkarların aqrar sektorda reallaşdırdıqları layihələrə güclü şəkildə dəstək verilir. 2003-2023-ci illər ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlıq subyektlərinə 3 milyard manata yaxın güzəştli kredit verilib. Bu layihələr hesabına 200 minə yaxın yeni iş yerinin açılması imkanı yaranıb. Ötən il güzəştli kreditlərdən bəhrələnən sahibkarların sayı 2023-cü illə müqayisədə 74,7 faiz artaraq 5722-yə çatıb. İl ərzində SİF tərəfindən verilən güzəştli kreditərin məbləği isə 28 faiz artaraq 248,1 milyon manat təşkil edib.

SİF-in investisiya portfelində aqrar sektorun payı daha çoxdur. İqtisadiyyat Nazirliyinin məlumatına əsasən, ayrılan vəsaitlərin 53,3 faizi kənd təsərrüfatı məhsullarının istehsalına yönəldilib. Eyni zamanda, cari ilin əvvəlinədək ölkə üzrə aqroparkların yaradılması və ya fəaliyyətlərinin genişləndirilməsi məqsədilə 158,9 milyon manat dövlət dəstəyi göstərilib. Sahibkarlığın İnkişafı Fondu tərəfindən 16 aqroparkın yaradılmasına 142,4 milyon manat güzəştli kredit ayrılıb. İnvestisiya təşviqi sənədi almış 17 aqropark isə texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 16,5 milyon manat dəyərində güzəşt əldə edib.




### Ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi diqqət mərkəzində

Hazırda dünyada müşahidə edilən geosiyasi və geoiqtisadi reallıqlar fonunda ölkələrin ərzaq təhlükəsizliyi milli təhlükəsizliyin əsas komponentlərindən biri qismində çıxış edir. BMT iqlim dəyişmələrinin, arealı genişlənən müharibələrin qlobal ərzaq təhlükəsizliyinə ciddi təhdidlər yaratdığı barədə həyəcan təbili çalır.

Azərbaycan dünyadakı reallıqları nəzərə almaqla özünütəminat səviyyəsinin yüksəldilməsini diqqət mərkəzində saxlayır. Son illərdə daxili istehsalın qorunması, regionlarda yetişdirlən məhsulların satış bazarlarına çıxarılmasının asanlaşdırılması istiqamətində zəruri tədbirlər görülüb. Bütövlükdə, 2024-cü ildə Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 487,4 milyon manat vəsait ayrılıb. Aqrar sahədə dövlət büdcəsinin vəsaiti hesabına məhsul istehsalçılarına subsidiyaların verilməsi və digər güzəştlərin tətbiqi davam etdirilir.

Hazırda ölkə üzrə ərzaq məhsullarının istehsalında iri təsərrüfatların rolu artmaqdadır. İZİA-dan verilən məlumata görə 2024-cü ildə aqroparklarda istehsal olunmuş kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 150 milyon manat təşkil edib. Heyvandarlıq üzrə ixtisaslaşmış 6 aqroparkda 32,4 min ton süd və 1,3 min ton ət istehsal olunub.

*Mübariz ABDULLAYEV*



# Siyasi münasibətlərin inkişafında mühüm addım

## Partiya sədrləri səfəri təqdir edirlər...

Ölkəmizdə formalaşan yeni siyasi konfiqurasiya dialoq mühitinin inkişafına mühüm töhfələr verib. Fərqli siyasi baxışlara malik təşkilatların milli maraqlara söykənən məsələlərdə vahid mövqedən çıxış etməsi olduqca mühüm mənzərə formalaşdırır - xüsusilə, İkinci Qarabağ müharibəsi dövründə Ali Baş Komandanın ətrafında birlik nümayiş etdirərək siyasi həmrəylik nümunəsinin ortaya qoyulması Azərbaycanın demokratik və hüquqi dövlət quruculuğu prosesində əldə etdiyi mühüm nailiyyətdir. Bu proses uğurla davam edir və Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə iş şöbəsinin təşkil etdiyi səfərlər siyasi həmrəyliyin gücləndirilməsi istiqamətində əsaslı addımlar kimi dəyərləndirilir. Azərbaycanın siyasi palitrasında mühüm yeniliklərə yol açan, yeni siyasi konfiqurasiya çərçivəsində inkişaf edən dialoq mühiti, siyasi həmrəylik bu dəfə Laçın rayonuna səfərdə öz təzahürünü tapdı. Belə ki, artıq sayca 6-cı olan birgə səfərin bu dəfəki ünvanı Laçın olub. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə aprelin 29-da həyata keçirilmiş səfərdə ümumilikdə, 80 nəfər olmaqla, 24 siyasi partiyanın sədr və nümayəndələri, habelə politoloq, siyasi şərhçi, internet televiziyalarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlər iştirak ediblər. Səfər çərçivəsində Zabuxçay su anbarı, Laçın şəhəri, o cümlədən Heydər Əliyev küçəsi, "Lacinema" kino mərkəzi, "Hoçazfilm" kinopavilyonu və Bəylik kəndində aparılan bərpa və yenidənqurma işləri ilə tanışlıq olub, habelə "Zerti Aqro-Sənaye Parkı"nda fəaliyyət göstərən müəssisələr haqında ətraflı məlumatlar verilib.



### Arzuxan Əlizadə: Səfər zamanı hər kəs Laçında görülən işlərlə yaxından tanış olmaq imkanı qazandı

Səfərlə bağlı təəssüratlarını "Yeni Azərbaycan" qəzeti ilə bölüşən AMİP sədri, Milli Məclisin deputatı Arzuxan Əlizadə bildirib ki, ölkəmizdə fəaliyyət göstərən siyasi qüvvələrin əksəriyyətinin yeganə amalı ölkəmizin daha yüksək səviyyədə inkişafına dəstək vermək və bu prosesdə fəal iştirak etməkdir. Onun sözlərinə görə, Azərbaycan Prezidentinin iradəsi əsasında milli həmrəyliyə və sağlam dialoqa xidmət edən siyasi islahatlar mühüm yeniliklərə yol açıb: "Dialoqun inkişafı əksər siyasi partiyaların həm iqtidarla, həm də öz aralarında sağlam münasibətlər formalaşdırıb. Ümumdövlət məsələlərində vahid mövqe yaranıb. Fikrimcə, ölkəmizdə postmüharibə dövründə dialoqun daha da gücləndirilməsi olduqca vacibdir. Bu mənada, Laçın səfəri mühüm əhəmiyyət daşıyır. Bilindiyi kimi, istər müharibə dövründə, istərsə də post-müharibə dövründə Laçın özünün strateji əhəmiyyəti ilə seçilib. Antiterror tədbirlərindən öncə Laçında təsis olunan post bu prosesdə həlledici rollardan birini oynamışdı. Səfər zamanı hər kəs Laçında görülən işlərlə yaxından tanış olmaq imkanı qazandı. Səfər çərçivəsində həm də görüləcək işlərlə bağlı bizlərə məlumatlar verildi. Bu olduqca əhəmiyyətlidir. Azərbaycan dövlətinin apardığı bu meqafəaliyyətin nəticələrini əyani şəkildə görürük. Düşünürəm ki, bu kimi səfərlər siyasi həmrəyliyimizin möhkəmləndirilməsi ilə yanaşı digər problemlərin də həllinə yaxından kömək göstərəcək. O baxımdan ki, fərqli siyasi partiyalar bərpa prosesi və ya hər hansı bir digər məsələ ilə bağlı öz təkliflərini irəli sürə bilər ki, bu da ümumi işə ancaq fayda verər. Bu məsələdə hər kəs aktiv olmalı və ölkəmizin mövqelərinin daha da güclənməsinə töhfəsini verməlidir".

### Razi Nurullayev: Laçını birgə ziyarət həm dünyaya, həm də Azərbaycan cəmiyyətinə pozitiv mesajlar verir



Milli Cəbhə Partiyasının sədri, Milli Məclisin deputatı Razi Nurullayev siyasi partiya rəhbərlərinin Laçına səfərini mühüm bir hadisə kimi qiymətləndirib. Onun sözlərinə görə, siyasi partiyaların birgə qələbənin nəticələrini əyani şəkildə görməsi və Xankəndi, Əsgəran və Xocalıdan sonra Laçına səfər etməsi siyasi mədəniyyətin daha da dərinləşməsinə xidmət edən addımdır. Millət vəkili bu istiqamətdə ölkə Prezidentinin iradəsinin ortada olduğunu bildirib və qeyd edib ki, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi və bu şöbənin müdiri Ədalət Vəliyev səmimi fəaliyyəti bu iradənin həyata keçirilməsində əsaslı nəticələr verib: "Siyasi partiyalar ümummilli məsələlərdə bir yerdədirlər. Ən əsası isə, vaxtilə biri-birinə qarşı mövqe tutan təşkilatlar belə bu birlikdə təmsil olunurlar. Münasibətlərin qurulmasındakı mürəkkəblik artıq mövcud deyil. Əksəriyyət anlayıb ki, ümumdövlət, millət məsələsində məhz bu cür davranış sərgiləmək labüddür. Laçında görülən işlər hər birimizi sevindirir, qürurlandırır. Siyasi partiyaların Laçını birgə ziyarəti istər dünyaya, istərsə də Azərbaycan cəmiyyətinə pozitiv mesajlar verir. İnsanlar bu mənzərəyə baxanda birlik nümunəsi, həmrəylik nümunəsi ortaya qoyan siyasi partiyaları görürlər. Əminəm ki, bu ənənə Azərbaycanda siyasi mədəniyyətin partiya demokratiyası fonunda inkişafını təmin edəcək. Bütövlükdə, prosesi və Laçın ziyarətini təqdir edirəm. Özüm də bu səfərdə iştirak etdim və digər parityaların rəhbərləri ilə də səmimi müzakirələr, dailoq imkanları əldə etdik və bunu yüksək dəyərləndirirəm".



### Ağasif Şakiroğlu: Belə səfərlər siyasi dialoqun dərinləşməsinə yol açır

Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu bildirib ki, yeni siyasi konfiqurasiyanın əsasında məhz siyasi dialoq mühitinin formalaşdırılması dayanır. Dialoq ənənəsi isə dövlətin əldə etdiyi uğurlara, qalibiyyətə və zəfərə hədəflənməlidir. 2020-ci ilin vətən müharibəsi dövründə siyasi partiyaların milli maraqlar ətrafında birləşməsi də məhz bu uğurları yaradan şərtlər sırasında qeyd olunur. O bildirib ki, həmin milli həmrəyliyin nəticələri ortadadır - suverenliyimizin bərpası hər bir siyasi partiya təmsilçisində, hər bir vətəndaşda xüsusi qürur hissi yaradır. 30 ilə yaxın işğal altında olan və xüsusi bir həssas anlam daşıyan Laçına səfər siyasi qüvvələrin yeni konsolidasiyasına, milli həmrəylik üçün dialoqun genişləndirilməsinə xidmət edən və bu işlərlə da yaxından köməklik göstərir: "Laçın səfəri yalnız doğma bir diyara edilən səfər deyildi. Laçın səfəri Azərbaycan diplomatiyasının, Azərbaycan Prezidentinin apardığı siyasətin uğurunun göstəricisidir. Bəlli olduğu kimi, Laçın 44 günlük Vətən müharibəsindən sonra Ermənistanın imzaladığı kapitulyasiya ilə qeyri-döyüş şəraitində təslim edilib. Bu isə Azərbaycanın diplomatik uğurlarının bariz sübutu kimi ön plana çıxır".

Partiya sədri bildirib ki, səfər əsnasında Laçında aparılan abadlıq, quruculuq işləri ilə yaxından tanış olmaq imkanı əldə edilib. "Hesab edirəm ki, belə səfərlər siyasi münasibətlərin müsbət inteqrasiyasını artırır, siyasi dialoqun bir qədər dərinləşməsinə yol açır", - deyə GAP sədri deyib.

### Musa Ağayev: Laçında qısa zamanda görülən işlər olduqca təqdirəlayiqdir



Yeni Zaman Partiyasının sədri Musa Ağayev bu səfəri ölkəmizdəki siyasi həmrəyliyin, birliyin növbəti təcəssümü kimi qiymətləndirib. Onun sözlərinə görə, bu gün ölkəmizdə iqtidarla müxalifət arasında fəal dialoq mühiti mövcuddur. Bu, dövlətimizin inkişafına da öz töhfəsini verir: "Xatırlayırıqsa, 2020-ci ilin sentyabrın 27-də, əkshücum əməliyyatları başlayan günü siyasi partiyalar birlik, həmrəylik bəyanatı imzaladılar. Hətta o dövrdə bəzi beynəlxalq dairələr bundan narahatlıq keçirirdi. Onlar təsəvvür edə bilmirdilər ki, Azərbaycan cəmiyyəti bir yumruğa çevrilib vahid mövqedən çıxış edər. Amma xalqımız, siyasi təşkilatlarımız yekdil şəkildə Prezidentimizin ətrafında birləşdi. Postmüharibə dövründə də bu birliyin davam etdirilməsi zəruridir. Bu baxımdan, Laçın səfərində növbəti dəfə nümayiş etdirilən siyasi həmrəylik xarici qüvvələrə və eyni zamanda, daxildə siyasi sabitliyə qarşı olanlara bir mesaj xarakteri daşıdı. Siyasi partiya rəhbərləri bir daha göstərdilər ki, onlar bir yerdədirlər və ölkəmizə qarşı olan təhdidlərə də birgə cavab verməyə hazırdırlar".

Laçın səfərinin xüsusi bir hiss oyatdığını deyən M.Ağayev həmin torpaqların azadlığı uğrunda şəhid olan igidlərimizin ruhuna rəhmət oxudu: "Şəhidlərimizə rəhmət diləyir, qazilərimizə cansağlığı arzulayırıq. Cənab Prezidentimizə bir daha dərin təşəkkürümüzü bildiririk. Laçında qısa zamanda görülən işlər olduqca təqdirəlayiqdir. Artıq insanlarımız həmin torpaqlarda yaşayırlar. Bu bizləri sevindirir".

**P.İSMAYILOV**

# Müştərək yol xəritəsi imzalandı...

## Azərbaycan - Küveyt arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın 4-cü iclası Bakıda keçiriləcək

Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır. Bunu dünya ölkələrinin, nüfuzlu beynəlxalq təşkilatların Azərbaycanla əməkdaşlıqda maraqlı olmaları da təsdiqləyir. Son illər Azərbaycanın Avropa, Türk dünyası ölkələri ilə olduğu kimi, ərəb dövlətləri ilə də münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu mənada, Küveyt ilə münasibətlər də xüsusi əhəmiyyətə malikdir.

Yeri gəlmişkən, aprelin 30-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Küveyt Dövlətinə rəsmi səfəri çərçivəsində bu ölkənin Vəliəhdi Şeyx Sabah Xalid əl-Həməd əl-Sabah ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüş zamanı Azərbaycan-Küveyt ikitərəfli və çoxtərəfli əməkdaşlığının müxtəlif aspektləri, regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə edilib.

Regional və beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın perspektivləri müzakirə olunub, Azərbaycanın növbəti ildə İƏT-ə sədrliyi çərçivəsində birgə fəaliyyət məsələlərindən bəhs edilib. Vəliəhd Şeyx Sabah Xalid əl-Həməd əl-Sabah BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) zamanı ölkəmizə səfərini və Prezident İlham Əliyev ilə baş tutan görüşünü xatırlayaraq, aparılan müzakirələr zamanı ölkələrimiz arasında xüsusilə iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, turizm kimi istiqamətlər üzrə əməkdaşlığın inkişafı məsələlərinə vurğu edildiyini diqqətə çatdırıb.

Səfər çərçivəsində C.Bayramov bu ölkənin xarici işlər naziri Abdullah Ali Al-Yahya ilə də görüşüb. Görüşdə Azərbaycan-Küveyt əməkdaşlığının siyasi, iqtisadi, ticarət, investisiyalar, enerji, nəqliyyat, kommunikasiyalar, humanitar aspektləri, turizm əlaqələrinin inkişafı, Yaxın Şərqdə mövcud təhlükəsizlik vəziyyəti, habelə postmünaqişə dövründə regional reallıqlar müzakirə olunub. Ölkələrimiz arasında mövcud dostluq və qardaşlığın tarixi, mədəni və dini ortaqlıqlara əsaslandığı, hər iki ölkənin liderləri arasında mövcud siyasi dialoqla daha da möhkəmləndiyi vurğulanıb.

C.Bayramov qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, habelə humani-




tar minatəmizləmə fəaliyyəti barədə ətraflı məlumatlandırıb. Azərbaycan-Ermənistan normallaşma prosesi, mövcud çətinlik və çağırışlardan ətraflı bəhs olunub.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Azərbaycanla Küveyt arasında ikitərəfli əlaqələrin gücləndirilməsi üzrə qarşılıqlı öhdəliklər çərçivəsində Azərbaycan və Küveyt Dövləti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın 3-cü iclası keçirilib. İclas Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Küveyt Dövlətinin xarici işlər naziri Abdullah Əli Əl-Yəhyanın sədrliyi ilə baş tutub. Bildirilib ki, iclasın əsas məqsədi Azərbaycanla Küveyt arasında ikitərəfli münasibətlərin bütün səviyyələrdə gücləndirilməsi və möhkəmləndirilməsi olub. Bu münasibətlər qarşılıqlı hörmət və maraqlara, eləcə də qarşılıqlı əhəmiyyət kəsb edən məsələlər üzrə əlaqələndirmə işinin təşkilinə əsaslanır. İki ölkənin hökumətləri arasında mövcud olan Əməkdaşlıq üçün Birgə Komissiya müştərək iqtisadi prioritetlərin və uzunmüddətli əməkdaşlığın gücləndirilməsi istiqamətində davamlı dialoq platforması təşkil edir.

Azərbaycan və Küveyt tərəfi iki dost ölkə arasında əlaqələrin uzunmüddətli inkişafını, qarşılıqlı maraq kəsb edən sahələrdə, xüsusilə enerji, ticarət, investisiya, infrastruktur, yüksək texnologiyalar, nəqliyyat, kənd təsərrüfatı, qida təhlükəsizliyi, təhsil, səhiyyə, turizm, media və idman sahələrində əməkdaşlığın gücləndirilməsi üçün ortaq baxışların mövcudluğunu, eləcə də ikitərəfli əlaqələrin möhkəmləndirilməsi istiqamətində konkret addımların atılmasının və işlərin koordinasiyasının əhəmiyyətini vurğulayıblar. Komissiya əlavə tədbirlərin görülməsi vasitəsilə ticarət dövriyyəsinin artırılması, iqtisadi əməkdaşlığın inkişafına nail olmaq, müştərək sənaye və texnologiya təşəbbüslərinə dəstək vermək, Azərbaycan və Küveyt arasında ticarət mübadiləsinin asanlaşdırılması üçün logistik xidmətləri təkmilləşdirmək barədə razılığa gəlib.

Regional və beynəlxalq müstəvidə diqqət tələb edən bir çox məsələlər nəzərdən keçirilib, beynəlxalq təhlükəsizlik və sülhə nail olmaq istiqamətində fəaliyyətə dəstək göstərməyin əhəmiyyəti, münaqişələrin BMT nizamnaməsi və beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq həllinin vacibliyi vurğulanıb. Azərbaycanın və Küveytin bir-birinin suverenliyini, ərazi bütövlüyünü dəstəkləməklə bağlı öhdəliklərinə sadiq olduqları bir daha diqqətə çatdırılıb.

Azərbaycan və Küveyt arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın 3-cü iclasının işinin sonunda iclasın təsdiq olunmuş protokolu, ona nəzarət mexanizmləri, onun əlavələri - növbəti iki il üçün müştərək yol xəritəsi imzalanıb. Bu, hər iki ölkənin bütün aidiyyəti qurumlarının strateji əməkdaşlıq vasitəsilə müxtəlif sahələrdə fəaliyyətini, eləcə də əməkdaşlıq çərçivəsini, konkret prosedurları və 2025-2027-ci illər üzrə müddəti əhatə edir. Tərəflər, həmçinin kənd təsərrüfatı sahəsində əməkdaşlıq müqaviləsini, idman, mədəniyyət və turizm sahələrinə aid bir neçə fəaliyyət proqramını imzalayıblar.

Yekunda, tərəflər Birgə Komissiyanın 4-cü iclasının 2027-ci ildə Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilməsi barədə razılığa gəliblər.

**Nardar BAYRAMLI**

## Milli Məclisin iclasında...

# Parlament Kamran Əliyevin Azərbaycanın Baş prokuroru vəzifəsinə təyin edilməsinə razılıq verib

Mayın 1-də Milli Məclisin növbəti iclası keçirilib. Əvvəlcə spiker Sahibə Qafarova iclasın gündəliyi haqqında məlumat verib. Gündəliyə 13 məsələ daxil edilib.

İlk olaraq, Prezident İlham Əliyevin təqdimatı ilə Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin olunmasına razılıq verilməsi üçün Kamran Bayram oğlu Əliyevin namizədliyi Milli Məclisin müzakirəsinə çıxarılıb. Bu barədə məlumat verən parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, Kamran Əliyev Baş prokuror kimi çalışdığı dövrdə prokurorluq orqanlarında islahatlar müasir tələblərə uyğun olaraq daha da dərinləşdirilib və öz müsbət nəticəsini vermişdir. Bu dövr ərzində prokurorluqda yeni informasiya texnologiyalarının tətbiqinə, həm də beynəlxalq əlaqələrin genişlənməsinə nail olunub.

## Əli Hüseynli: Hazırda prokurorluq əməkdaşlarının 90 faizi gənc, amma peşəkar kadrlardır

Onun sözlərinə görə, hazırda prokurorluq əməkdaşlarının 90 faizi gənc, amma peşəkar kadrlardır və bu illər ərzində ölkədə həyata keçirilən korrupsiyaya qarşı mübarizədə prokurorluq aparıcı rol oynayıb: "Müasir dövrdə prokurorluq və digər hüquq-mühafizə, güc strukturları arasında çox ciddi, səmərəli, qarşılıqlı əməkdaşlıq mövcuddur. Bunun nəticəsidir ki, ölkəmizdə mütəşəkkil cinayətkarlığın bütün formalarına qarşı effektiv mübarizə həyata keçirilir. Təəssüf ki, bir sıra hallarda bəzi xarici dairələrin prokurorluğun və bütövlükdə hüquq-mühafizə orqanlarının separatçılığa, terrorizmə, mütəşəkkil cinayətkarlığa qarşı qətiyyətli mövqeyini şübhə altına qoymaq kimi neqativ cəhdlərini müşahidə edirik. Hesab edirəm ki, cəmiyyətimiz və medianın bu məsələlərdə vahid qətiyyətli mövqeyi mövcuddur və bu davamlı olmalıdır. İndi Azərbaycan ictimaiyyəti Bakı Hərbi Məhkəməsində hərbi cinayətlər törətməkdə təqsirləndirilən erməniəsilli şəxslərin cinayət işi üzrə məhkəmə prosesində bir daha prokurorluq orqanlarının necə peşəkar istintaq apardığının şahidi olur. Məhz istintaqda əldə olunmuş təksibolunmaz faktlar və sübutlar məhkəmə prosesində separatçıların öz cinayətlərinin etirafı ilə bağlı ifadələrə gətirib çıxarır".

Komitə sədri qeyd edib ki, qısa zaman çərçivəsində işğaldan azad olunmuş ərazilərdə prokurorluq orqanları fəaliyyətə başlayıb, bir sıra yerlərdə, o cümlədən Xankəndi şəhərində də ən yüksək standartlara cavab verən inzibati binalarla təmin olunub və bu sahədə işlər davam etdirilir. Ə.Hüseynli ötən dövrdə Milli Məclis və Baş Prokurorluq arasında səmərəli əməkdaşlığın olduğunu vurğulayıb. Belə ki, deputatların sorğuları, müraciətləri diqqətlə araşdırılır, ehtiyac olduqda qəbullar həyata keçirilir və müvafiq tədbirlər görülür. Prokurorluq orqanları nümayəndələri cinayət və inzibati qanunvericiliyin hazırlanmasında işçi qrupları çərçivəsində çox səmərəli fəaliyyət göstəriblər. Ə.Hüseynli Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin Kamran Əliyevin namizədliyinə müsbət rəy verdiyini diqqətə çatdırıb.

Sonra səsvermə keçirilib və Kamran Əliyevin Azərbaycanın Baş prokuroru vəzifəsinə təyin olunmasına razılıq verilməsi haqqında qərar qəbul olunub.

## Növbəti iclas mayın 8-də keçiriləcək

Sonra millət vəkilləri gündəlikdə olan digər məsələləri müzakirə ediblər. Əvvəlcə bir sıra qanun layihələri üçüncü oxunuşda qəbul olunub. Eləcə də, Mülki Prosessual Məcəlləsində və "İcra haqqında" Qanunda, "Əmək pensiyaları haqqında" Qanunda, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanunda və bir sıra digər qanunlarda nəzərdə tutulan dəyişikliklər ikinci oxunuşda qəbul olunub.

Sonda spiker Sahibə Qafarova parlamentin növbəti iclasının mayın 8-də keçiriləcəyini bildirib.

*Nardar BAYRAMLI*




## Kamran Əliyev: Respublika prokurorluğunun qarşısında yeni və mühüm vəzifələr dayanır

Çıxış edən Kamran Əliyev ona göstərilən yüksək etimada görə Prezident İlham Əliyevə təşəkkür edib. K.Əliyev bildirib ki, respublikamızın bugünkü uğurlarının əsasını müasir Azərbaycanın qurucusu, hüquq sisteminin əsasını təşkil edən Konstitusiyamızın müəllifi Heydər Əliyevin ölkəmizin hərtərəfli inkişafı ilə yanaşı suverenliyimizin tam bərpasına hədəflənmiş strategiyası və uzaqgörən siyasəti təşkil etməkdədir. Məhz bu strategiyanın Prezident İlham Əliyev tərəfindən dünyada gedən qarışıq siyasi proseslər fonunda uğurla davam etdirilməsinin, habelə balanslaşdırılmış səmərəli xarici siyasətin aparılmasının və ordu quruculuğuna verilən önəmin nəticəsidir ki, 30 ildən çox bir müddətdə davam etmiş ərazi bütövlüyümüz və suverenliyimizlə bağlı problemlərə birdəfəlik son qoyulub, ölkəmizin suverenliyi və konstitusiya quruluşu bütün ərazilərimizdə tam bərpa olunub.

O qeyd edib ki, prokurorluq orqanlarında aparılan islahatların mütərəqqi nəticəsi kimi ölkə Prezidenti tərəfindən imzalanmış müvafiq Fərmanlarla yaradılmış "Elektron Prokurorluq" informasiya sistemi artıq 2 ildən çox müddətdir ki, tətbiq edilməkdədir. Nəticədə bütün prokurorluq orqanlarının işi rəqəmsallaşdırılıb, fəaliyyət istiqamətlərinə uyğun olaraq icraatlar üzrə proseslər sürətlənib ki, bu da fəaliyyətimizdə çevikliyi artırmaqla vətəndaş məmnunluğunun təmin edilməsinə xidmət etməkdədir.

"Siyasi iradədən qaynaqlanan hazırda davam etdirilən islahatlar bu yeni dövrdə, xüsusən də "Konstitusiya və Suverenlik ili" çərçivəsində Azərbaycan Prokurorluğu qarşısında yeni və olduqca mühüm vəzifələr qoyur",- deyən K.Əliyev bu kontekstdə prokurorluğun qarşısında duran əsas vəzifələrdən bəzilərini diqqətə çatdırıb. Belə ki, dövlətin təhlükəsizliyinə qəsd edən cinayətlərə qarşı mübarizənin gücləndirilməsi, dövlətçiliyin daxili və xüsusən də xarici təhdidlərdən müdafiəsi; Cinayətkarlığın bütün növlərinə qarşı mübarizə və qanunçuluğun qorunmasında digər hüquq-mühafizə orqanları, o cümlədən Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti ilə birgə səylərin gücləndirilməsi; Vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmin edilməsi; Dövlət və özəl sektorda korrupsiyanın bütün təzahür formalarına, eləcə də vəzifəli şəxslər tərəfindən törədilən cinayətlərə qarşı ciddi mübarizə tədbirlərinin həyata keçirilməsi, eyni zamanda kölgə iqtisadiyyatına qarşı kəsərli mübarizənin aparılması;

Dövlətə və dövlətçiliyə sadiq gənc hüquqşünasların yetişdirilməsi, onların prokurorluq orqanlarında şəffaf prosedurlar əsasında işə qəbul edilməsi, müasir dövrün tələbinə uyğun olaraq prokurorluq əməkdaşlarının rəqəmsal savadlılığının artırılması, layiqli kadrların vəzifələrdə irəli çəkilməsinin diqqətdə saxlanılması; "Elektron prokurorluq" informasiya sistemi daim təkmilləşdirilməklə süni intellektin istifadəsinin təmin edilməsi, ölkə üzrə rəqəmsal cinayət prosesinin tətbiqinə nail olunması; İkitərəfli və çoxtərəfli əlaqələri inkişaf etdirməklə beynəlxalq əməkdaşlığın gücləndirilməsi, beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsi və qabaqcıl təcrübənin öyrənilərək tətbiqinin təmin edilməsi və s. qarşıda dayanan vəzifələr sırasındadır.

Çıxışının sonunda K.Əliyev əmin edib ki, bundan sonra da Azərbaycan Prokurorluğu öz fəaliyyətinin göstərilən ali etimada layiq səviyyədə qurulması üçün Konstitusiya və qanunlarda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə üzərinə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirərək dövlətimizə və xalqımıza ləyaqətlə xidmət edəcək.

# Azərbaycan-Səudiyyə Ərəbistanı: İqtisadi əməkdaşlığın yeni gündəliyi

### Müştərək Komissiyanın 8-ci iclasında iqtisadi-ticarət və investisiya əməkdaşlığının genişləndirilməsi razılaşdırılıb

Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər-Riyad şəhərində Azərbaycan Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnologiya, mədəniyyət, idman və gənclər sahələrində əməkdaşlığa dair Müştərək Komissiyanın 8-ci iclası keçirilib. Komissiyanın həmsədrləri Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov və Səudiyyə Ərəbistanının investisiya naziri Xalid bin Əbdüləziz Əl-Falih iki ölkə arasında mövcud əməkdaşlığın cari vəziyyəti və gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparıblar. Tərəflər enerji sektorunda əməkdaşlıq, Azərbaycanın qeyri-neft sənayesi məhsullarının Səudiyyə Ərəbistanına ixracının genişləndirilməsi, turizm sahəsində birgə layihələrin həyata keçirilməsi və digər sahələrdə imkanları dəyərləndirib.

Müştərək Komissiyanın tədbiri çərçivəsində Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının 6-cı iclası da keçirilib ki, hər iki tərəfdən rəsmi şəxslər və iş adamları, o cümlədən sənaye, kənd təsərrüfatı, inşaat, əczaçılıq, xidmət, memarlıq və dizayn, logistika, turizm, bərpa olunan enerji kimi sektorlarda fəaliyyət göstərən Azərbaycan şirkətlərinin və biznes assosiasiyaların 30-a yaxın nümayəndəsi iştirak edib. Hər iki ölkənin işgüzar dairələri arasında ticarət və investisiya sahəsində əlaqələrin genişləndirilməsi perspektivləri, Azərbaycanda yerli və xarici iş adamlarına göstərilən dəstək və xidmətlər barədə geniş müzakirələr aparılıb.

## Neftdən qeyri-neft sektoruna doğru...

Azərbaycan və Səudiyyə Ərəbistanı arasında dərin hörmət və sıx dostluğa əsaslanan münasibətlər son illərdə inkişaf edərək bütün sahələrdə irəliləməkdədir. İki ölkənin dövlət başçılarının, hökumət üzvlərinin, iqtisadi qurumları və biznes nümayəndələrinin birgə səfərlərinin intensiv xarakter alması və aparılan faydalı müzakirələr ticarət, iqtisadiyyat, enerji, ətraf-mühit kimi sahələrdə əməkdaşlıq üçün yeni qapılar açmaqdadır.

Bir neçə ilə qədər Azərbaycan və Səudiyyə Ərəbistanı arasında iqtisadi proqramların əsas xətti neft-qaz və enerji sahələrini əhatə edirdisə, son illərdə iqtisadi coğrafiya xeyli genişlənib və qeyri-neft sektorunun bütün istiqamətlərində əlverişli işgüzar təmaslar qurulub.

Səudiyyə Ərəbistanının 2 şirkəti "Əsrin müqaviləsi"ndə və Bakı-Ceyhan layihəsində iştirakçıdır. Bundan başqa, Səudiyyə Ərəbistanının "Al-Gahtani Pipe Coatinq Terminal", "Middle East Fiber Cables Manufacturing" və "Middle East Sibecializet Cables CO (MESC)" şirkətləri enerji sektorlarında təmsil olunur. SOCAR ilə "Saudi Aramco" arasında əməkdaşlıq son illərdə genişlənərək hər iki şirkətin beynəlxalq bazarlarda mövqelərinin güclənməsinə səbəb olmaqdadır. Bu prosesdə 2022-ci ildə yaradılmış Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurası öncül təşəbbüslərlə çıxış edir. Qurum sahibkarların təşəbbüslərini dəstəkləmək, onlar arasında birbaşa əlaqələrin qurulmasını təşviq etmək, qarşılıqlı səfərlərin, görüşlərin və müxtəlif tədbirlərin təşkilinə kömək etmək, bizneslər arasında mübadiləsini həyata keçirmək missiyası daşıyır.



## Azərbaycan Ticarət Evləri açılır

Səudiyyə Ərəbistanının investisiya naziri Xalid bin Əbdüləziz Əl-Falih çıxışında Səudiyyə Ərəbistanının Azərbaycanla ticarət əlaqələrinin inkişafında maraqlı olduğunu, ticarət dövriyyəsinin artırılması, energetika, investisiya, turizm, təhsil, səhiyyə, sənaye, kənd təsərrüfatı, alternativ və bərpa olunan enerji sahələrində əməkdaşlığın genişləndirilməsinə önəm verdiklərini, Səudiyyə şirkətlərinin bu sahələrə investisiya yatırmaq niyyətini də ifadə edib. Bu məqsədlə ixrac missiyalarının təşkili, Ər-Riyad və ya Ciddə şəhərində Azərbaycan Ticarət Evlərinin açılması gündəlikdə dayanır.

Səudiyyə iş adamları Azərbaycandakı ekoturizmə və digər turizm sənayelərinə böyük marağı xüsusi nəzərə çarpır. Son beş ildə ölkəmizə ən böyük turist axını 2024-cü ildə qeydə alınıb və Səudiyyə Ərəbistanından Azərbaycana gələn turistlərin sayı 98 min nəfəri ötüb. Bu, səyahət edən turistlərin sayında sədiyyəlilərin dinamikasında daha çox artımın olduğunu təsdiqləyir.

## "ACWA Power"in 5 milyard dollarlıq sərmayə planı

Tərəflər arasında "yaşıl enerji" sahəsində əməkdaşlıq da dayanıqlı zəmin üzərində möhkəmlənir. Səudiyyənin "ACWA Power" şirkəti artıq Abşeron və Xızı rayonlarında 240 MVt gücündə külək elektrik stansiyası inşa edir. Həmçinin, "ACWA Power", SOCAR və BƏƏ-nin "Masdar" şirkəti Xəzər dənizində 3,5 qiqavat gücündə dəniz külək elektrik stansiyası layihəsi üzərində birgə işləyir. "Acwa Power" şirkətinin regional direktoru Abid Malik bildirib ki, investisiya əsasən Azərbaycanın bərpaolunan enerji sahəsinə 5 milyard dollara yaxın sərmayə yatırılacaq.

Səudiyyəli investorların işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma və bərpa proseslərində təmsil olunması da istisna edilmir. 2022-ci ilin dekabrında Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri Xalid bin Əbdüləziz Əl-Falihin rəhbərlik etdiyi böyük bir nümayəndə heyəti ölkəmizdə səfəri çərçivəsində azad edilmiş ərazilərə baş çəkərək bölgənin resursları və investisiya imkanları ilə yaxından tanış olub. Həmin səfər zamanı Səudiyyə Ərəbistanından olan özəl şirkətlərin Qarabağın bərpa prosesində iştirakının nəzərdən keçirildiyi vurğulanıb, Səudiyyə İnkişaf Fondu və Səudiyyə İnvestisiya Fondu tərəfindən maliyyə vəsaiti ayrılacağı bildirilib.

Qeyd edək ki, Azərbaycan Hökuməti ilə Səudiyyə Ərəbistanı Hökuməti arasında Müştərək Komissiyanın 8-ci iclasının Protokolu imzalanıb və tərəflər yeni iqtisadi prioritetləri müəyyənləşdirərək niyyətlərini bəyan edib. Əsas hədəflər birgə sərmayə planların dəyərləndirmək və iqtisadi-ticari mübadiləni genişləndirməkdir.

*ELBRUS CƏFƏRLİ*

# Yeni nizamın həmmüəllifi - barışdırıcı missiya, iqtisadi platforma, siyasi sabitləşdirici...

## Azərbaycan Qlobal Cənubun inkişafında yeni mərhələ formalaşdırır

### Bakı dördcəhətli dünya qütblərini biri-birinə qovuşdurur...

XXI əsrin geosiyasi mənzərəsində ciddi dəyişikliklər müşahidə olunur: Qərb mərkəzli dünya nizamı tənqidlərə məruz qalır, qlobal ədalətsizliklər daha kəskin görünür və inkişaf etməkdə olan ölkələr - yəni Qlobal Cənub beynəlxalq münasibətlərin passiv obyektindən fəal aktoruna çevrilməkdədir. Bu transformasiya təkcə iqtisadi maraqlarla deyil, həm də siyasi, mədəni və iqlim ədaləti uğrunda mübarizələrlə müşayiət olunur. Qlobal Cənub ölkələri müstəmləkəçiliyin nəticələrinə qarşı çıxaraq daha çox söz haqqı, daha bərabər resurs bölgüsü və ədalətli qlobal idarəetmə tələb edirlər. Məhz belə bir tarixi mərhələdə Azərbaycanın fəallaşan Qlobal Cənub içərisində rolu və mövqeyi xüsusilə diqqət çəkir. Qoşulmama Hərəkatına uğurlu sədrlik, COP29-a ev sahibliyi və beynəlxalq platformalarda ədalətli mövqe nümayiş etdirməsi Azərbaycanın yeni dövrün ədalət və çoxqütblülük çağırışlarına cavab verməyə çalışan bir aktor kimi önəmini artırır.

### Qlobal Cənubun inkişafı üçün səfərbərlik paytaxtımızda başlayır ...

Son dövrlərdə siyasi leksikonun ən intensiv terminlərindən birinə çevrilən “Qlobal Cənub” anlayışı coğrafi mövqedən çox, iqtisadi inkişaf səviyyəsi, qlobal güclərlə münasibətlər əsasında müəyyən olunur - burada siyasi sərhədlər şərti anlayış kimi qəbul olunur. Məsələn, konkret olaraq Avrasiya məkanı üçün Qlobal Cənuba daxil edilə biləcək əsas regionları və ölkələri qruplaşdırsaq, burada Mərkəzi Asiya ölkələri, Cənubi Qafqaz ölkələri, Cənubi Asiya ölkələri, Cənub-Şərqi Asiya ölkələrini qeyd etmək olar. Təbii olaraq Qlobal Cənubun siyasi-iqtisadi inkişafında ən mühüm rollardan biri Yaxın və Orta Şərqə aid edilir. Düzdür, Rusiya, Çin və Türkiyə Qlobal Cənubun maraqlarını təmsil etsələr də, ayrıca mühüm qlobal güc mərkəzləri sayılırlar - hətta onları “qeyri-Qərb qütbləri” kimi də qeyd etmək olar.

Beləliklə, yeni siyasi-coğrafi aktor kimi önə çıxan Qlobal Cənubun yeni nizamının formalaşması üçün gedən proseslər diqqəti cəlb etməkdədir. Vurğulamaq lazımdır ki, Azərbaycanın Qlobal Cənubun aparıcı aktoru kimi fəallaşması bütün detalları ilə ortadadır. Ölkənin müstəqil xarici siyasəti, neokolonializmlə bağlı mövqeyi, qlobal ədalət çağırışları və regional əməkdaşlıq təşəbbüsləri fonunda daha aydın görünür. Nəticə etibarı ilə:

- Qlobal Cənub ölkələri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq: Azərbaycan, Xüsusilə Afrika İttifaqı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı kimi platformalar vasitəsilə bu əlaqələri daha da dərinləşdirir;
- Kolonializmə qarşı siyasəti dəstəkləməsi: Dövlətimiz neokolonial siyasəti, xüsusilə Fransa kimi keçmiş imperiyaların



Afrika və Asiyadakı müdaxilələrini tənqid edir;
- COP29 və iqlim gündəliyi vasitəsilə Qlobal Cənubun səsinin gücləndirilməsində fəal iştirak: Azərbaycanın ev sahibliyi etdiyi COP29 sammiti Qlobal Cənubun iqlim maliyyəsi, texnoloji dəstək və bərabər iştirak hüququ kimi məsələlərinin qlobal müzakirəyə çıxarılması baxımından unikal fürsət idi;
- Enerji və tranzit sahəsində yeni əməkdaşlıq formatları: Azərbaycan həm də enerji resursları və nəqliyyat-logistika imkanları ilə Qlobal Cənub ölkələri üçün alternativ əməkdaşlıq kanalları yaradır (məsələn, Zəngəzur dəhlizi, Bakı-Tbilisi-Qars və Orta Dəhliz layihələri).

Bu tezislər Azərbaycanın yeni dövrdə Qlobal Cənub üçün kəsb etdiyi əhəmiyyəti ortaya çıxarır, bu vasitə ilə isə həm də Qlobal Şimalın Qlobal Cənubla əlaqələrinin tənzimlənməsi, güclənməsi, hətta barışdırıcı və sabitləşdirici formatların təşkilatçısı kimi önə çıxmasını təmin edir.

### Yeni nizamın aparıcı aktoru...

Bu ilin aprel ayının siyasi gündəliyinə nəzər salsaq, Azərbaycanın açıq şəkildə yeni nizamın formalaşdırdığını, ən əsası isə “qlobal razılaşmaların” səsləndiyi tribuna rolunu üstləndiyini görə bilərik. Simvolik cəhətdən yanaşdıqda Bakını hətta müasir nizamın mərkəzi də adlandırmaq olar. O nöqteyi-nəzərdən ki, Bakı artıq 4 cəhət üzrə həm siyasi, həm də iqtisadi kəsişmələrinin əsas nöqtəsidir. İstər Şərq-Qərb, istər Şimal-Cənub istiqamətləri üzrə formalaşan münasibətlər sistemi Azərbaycanın iştirakı, hətta bəzi məqamlarda liderliyi ilə həyata keçirilir. Detallara nəzər salaq:

- Avropa İttifaqı yeni dövr üçün Qlobal Cənubla əməkdaşlıq parametrlərini Azərbaycanda müəyyənləşdirir;
- Şərq ilə nəzərdə tutulan genişmiqyaslı iqtisadi təmərküzləşmənin mərkəz nöqtəsi Azərbaycandır (Çin ilə imzalanan hərtərəfli strateji tərəfdaşlıq sənədi bunu təsdiqləyir);
- Mərkəzi Asiya və Türk coğrafiyasında aparıcı rola malikdir - Orta Dəhlizin ən mühüm və strateji stansiyasıdır;
- Yaxın və Orta Şərq Azərbaycan vasitəsilə qlobal bazarda özünə yer etməyə çalışır;
- Hətta ənənəvi kataklizmlərin dayandırılması, həlli yollarının araşdırılması, tapılması Azərbaycanın vasitəçiliyi ilə reallaşır.

### Qlobal Cənubun təhlükəsizlik qarantı...

Azərbaycanın apardığı siyasi kurs həm coğrafi, həm siyasi baxımdan körpü rolunun əhəmiyyətini ön plana çıxarır. Qlobal Cənubun daha ədalətli dünya quruculuğunda artan təsiri və Azərbaycanın töhfələri olduqca vacib ştrixlərə çevrilib. Xatırlasaq, bu ayın əvvəlində ADA Universitetində keçirilən “Yeni dünya nizamına doğru” mövzusunda beynəlxalq forumda çıxış edən Prezident İlham Əliyev ölkəmizin həm də barışdırıcı missiyasından bəhs açmışdı. Konkret misala gəldikdə, dövlət başçısı bildirmişdi ki, Türkiyə ilə İsrail arasında ilk uğurlu barışıq müəyyən dərəcədə Azərbaycanın vasitəçiliyi ilə əldə olunub - proses isə ikinci raunda hazırlaşır. Sitat: “Normallaşmanın birinci raundu zamanı biz tamamilə sakit idik. Biz bağlı qapılar arxasında işləyirdik. Təsəvvür edə bilərsiniz ki, biz indi eyni işi görürük. Ümidvarıq ki, bu proses normallaşmaya aparacaq. Dostlarınız arasında pis münasibətlərin olması hər zaman pisdir. Bu, onlar üçün pisdir, bizim üçün pisdir və dünya üçün pisdir. Çünki düşünürəm ki, legitim narahatlıqlara, kifayət qədər yüksək səviyyədə etimadsızlığa baxmayaraq, hələ də normallaşma və qarşılıqlı maraq doğuran sahələr üçün əsas tapmaq olar. Zənnimcə, proses dayanmamalıdır. Azərbaycan prosesə kömək etmək üçün əlində olan hər şeyi edir”.

Bəli, Azərbaycan bölgədə sabitliyin formalaşması üçün bütün gücü ilə çalışır - nəzərə alaq ki, İsrailin Baş naziri Benyamin Netanyahunun Bakıya 5 günlük səfəri gözlənilir. Baş nazirin ofisinin yaydığı məlumata görə, Netanyahu mayın 7-də Azərbaycana səfər edəcək. Onun mayın 11-də İsrailə qayıdacağı bildirilir. Türkiyə KİV-i isə Prezident Rəcəb Tayyib Ərdoğanın da ölkəmizə səfəri haqda yazıb. Bu informasiyalar özlüyündə Azərbaycanın mühüm bir missiyasını əks etdirir - Bakı yenidən Qlobal Cənubun təhlükəsizlik arxitekturasının formalaşdırılması məsuliyyətini üzərinə götürüb...

### Avropanın Şərq ilə münasibətlərində ən mühüm körpü...

Bu spesifikaya ilk olaraq Avropa - Azərbaycan münasibətləri kontekstində nəzər salaq: Prezident İlham Əliyevin Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallası qəbul edərkən səslənən fikirlər və istiqamətlər çox şeydən xəbər verir. Müzakirələr zamanı toxunulan məsələlər baxaq:

- Kaya Kallas Avropa İttifaqının Azərbaycanla əlaqələri yüksək dəyərləndirdiyini və bu münasibətləri daha da inkişaf etdirməkdə maraqlı olduğunu qeyd edir;
- Ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş rolunda çıxış etdiyini təsdiqləyir;
- Nəqliyyat bağlantıları mövzusuna toxunaraq, bu xüsusda da çox mühüm regional bir dövlət olan və vacib geosiyasi məkanda yerləşən Azərbaycanın rolunun əhəmiyyətini vurğulayır.
- Cənubi Qafqaz regionunda davamlı sabitliyin təmin olunmasına dair fikir mübadiləsi aparılır.

Görünən budur ki, Qərb, konkret olaraq Avropa kontingenti Orta Dəhliz və Zəngəzur dəhlizi istiqamətlərində Qlobal Cənub üçün yeni inteqrasiya imkanlarını yüksək sayır və Azərbaycanı bu əlaqələr sisteminin liderlərindən biri kimi qəbul edir. Paralel olaraq Azərbaycanın Qərb üçün alternativ enerji mənbəyi rolunu üstlənməsi hətta Avropa - Azərbaycan münasibətlərinə yeni ton verir. Nəticə isə Azərbaycanın bu proseslərdəki strateji mövqeyini ortaya qoyur.

### Azərbaycanın liderliyi təqdir olunur...

Qlobal Cənubun yeni formatla inkişafı prosesi baxımından İran Prezidenti Məsud Pezeşkianın ölkəmizə səfəri də bir sıra mühüm mesajlarla müşayiət olundu:

- Məhdud tərkibdə keçirilən görüşdə hökumətlərarası komissiyanın fəaliyyətinə toxunuldu, energetika, xüsusilə elektrik enerjisi sahəsində əməkdaşlıq müzakirə olundu. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı ilə bağlı fikir mübadiləsi aparıldı. Bir daha diqqətə çatdırıldı ki, Azərbaycan və İran regional məsələlərin bölgə ölkələrinin özləri tərəfindən həll edilməsinin tərəfdarıdır. Bu xüsusda 3+3 regional əməkdaşlıq formatının (bu formatın da təşəbbüskarı məhz Azərabaycandır) əhəmiyyəti vurğulandı;
- Geniş tərkibdə görüşdə isə İran Prezidenti bildirdi ki, bizim burada iştirakımız, həmçinin daha əvvəl keçirilən iclaslarda mütəxəssislərimiz tərəfindən hazırlanan razılaşmalar və bundan sonra imzalanacaq sazişlər Azərbaycanla, əziz, dost, qardaş və demək olar ki, həm də qohum Azərbaycan xalqı ilə əlaqələrimizdə daha geniş addımlarla irəliləyişin başlanğıcına çevriləcək, bölgədə münasib əməkdaşlıq nümunəsinin formalaşmasına səbəb olacaq: “Sizin, Azərbaycanın və əziz Azərbaycan xalqının Qarabağda və Azərbaycanın sahib çıxmalı olduğu digər ərazilər üzərindəki hüququnu tanıyırıq. Biz inanırıq ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və buna hörmətlə yanaşırıq. Təbii ki, bizim burada olmağımız əlaqələrimizin və birliyimizin möhkəmlənməsinə imkan yaradacaq”.
- Nəhayət, mətbuata bəyanatlar verilən zaman İran Prezidenti bildirdi ki, “bütün sahələrdə əməkdaşlıq edə bilərik. Elə bir bölgə yarada, ölkələr arasında elə bir əlaqə qura bilərik ki, Avropa ölkələri arasında olan əlaqələrdən daha üstün olsun”.

Beləliklə, səslənən fikirlər göstərir ki, İran da digər dövlətlər kimi Qlobal Cənubun əməkdaşlıq konsepsiyasını Azərabycanın liderliyi ilə həyata keçirilməsini təsdiqləyir. Rəsmi Tehran ölkəmizin sivilizasiyalararası körpü olması ilə yanaşı, siyasi yaxınlaşmaların da müəllifi olmasını ön planda tutur - yəqin ki, bəzi bölgəsəl problemlərin həlli ilə bağlı Azərbaycanın mühüm proseslər başlatma ehtimalı da önə çıxa bilər. Bu da ümumən regionun təhlükəsizlik immünitetinin güclənməsinə yönəlik tədbirlər ola bilər.

### Yeni qlobal tərəfdaşlıq üçün zəmin...

Beləliklə, Azərbaycanın Qlobal Cənubun inkişafına verdiyi töhfələr və bu istiqamətdəki liderlik rolu beynəlxalq miqyasda getdikcə daha çox tanınır və təqdir olunur. Enerji təhlükəsizliyi, iqlim dəyişikliyi ilə mübarizə, nəqliyyat-tranzit dəhlizlərinin genişləndirilməsi və ədalətli beynəlxalq münasibətlərin qurulmasında ölkəmizin təşəbbüskarlığı Qlobal Cənub ölkələri üçün mühüm örnəyə çevrilib. Azərbaycan dayanıqlı gələcək naminə səylərini uğurla davam etdiritr və bu da müsbət nüans kimi qiymətləndirilir. İnandırıcıdır ki, bu liderlik xətti təkcə regional deyil, həm də qlobal miqyasda yeni tərəfdaşlıq formatlarının yaranmasına yol açacaq və Azərbaycanın beynəlxalq arenada etibarlı tərəfdaş, prinsipial və ardıcıl siyasət yürüdən dövlət kimi mövqeyi daha da möhkəmlənəcək.

*PƏRVİZ SADAYOĞLU*

# Uzunmüddətli etibarlı əməkdaşlıq modeli

## Azərbaycan və Böyük Britaniya iqtisadi sahədə əməkdaşlığın yeni strateji kursunu müəyyən edib

Azərbaycan və Böyük Britaniya iqtisadi sahədə əməkdaşlığı gücləndirmək, yeni layihələr icra etmək məqsədilə yeni strateji kurs müəyyən edib. Tərəflər enerji, sənaye, qarşılıqlı investisiya, nəqliyyat, aviasiya, rəqəmsal tikinti və mina təmizləmə sahələrində əməkdaşlığı artırmaq məqsədilə ikitərəfli ticarət və investisiya platformasının yaradılması imkanlarını müəyyənləşdirib. Londonda keçirilən Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 7-ci iclasında Komissiyanın həmsədri, Birləşmiş Krallığın biznes və ticarət üzrə dövlət katibinin müavini Qaret Tomas bildirib ki, iki ölkənin əməkdaşlıq gündəliyi olduqca zəngindir və yeni hədəf prioritetlərini nəzərdə tutur.

### Yeni enerji hədəfləri

Hökumətlərarası Komissiyanın həmsədri Azərbaycanın energetika naziri Pərviz Şahbazov bildirib ki, ölkəmizin əsas ticarət tərəfdaşı olan Birləşmiş Krallıqla münasibətlərin inkişafına və çoxşaxəli əməkdaşlığa xüsusi önəm verilir. Böyük Britaniya 37 milyard dollardan çox sərmayə qoyuluşu ilə Azərbaycanda ən iri xarici investor statusunu qoruyur. Ölkəmizdə müxtəlif sahələrdə 500-dən çox Britaniya şirkətinin aktiv fəaliyyəti, cari ilin 1-ci rübündə ikitərəfli ticarət dövriyyəsinin 4 dəfə artması ölkələrimiz arasında iqtisadi tərəfdaşlığın dinamik inkişafının göstəriciləri kimi qiymətləndirilib.

Böyük Britaniya enerji sektorunda ölkəmizin ən mühüm strateji tərəfdaşıdır. 1994-cü ildə imzalanmış "Əsrin Müqaviləsi" çərçivəsində "Azəri-Çıraq-Günəşli" (AÇG) yatağının işlənməsində "bp" şirkətinin rəhbərlik etdiyi Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti Hasilatın Pay Bölgüsü Sazişi üzrə enerji hərəkatında misilsiz uğurlara imza atıb. Şirkət Xəzər dənizinin Azərbaycan sektorunda həyata keçirilən əsas neft-qaz layihələrinin operatoru olmaqda davam edir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Şahdəniz qaz layihəsi, "Azəri-Çıraq-Günəşli" neft yataqları bütövlükdə "bp"nin ən böyük xarici layihəsi hesab olunur. Bu əməkdaşlığın davamı olaraq 14 sentyabr 2017-ci ildə Bakıda SOCAR və "bp"-nin əməliyyatçısı olduğu Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq", "Günəşli" yataqlarının 2050-ci ilədək işlənilməsini nəzərdə tutan yeni Sazış imzalanıb. Həmçinin, 2018-ci ilin aprelində SOCAR və "bp" arasında Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv blokunun birgə kəşfiyyatı və işlənilməsi üzrə hasilatın pay bölgüsü haqqında saziş imzalanıb. Həmçinin Azərbaycanın neft-qaz sektoruna 35 milyard dollardan artıq sərmayə qoymuş "bp" ilə qaz nəqli və ixracı sahəsində də möhkəm təməllər qoyulub. Səmərəli tərəfdaşlığın nümunəsi olaraq Cənub Qaz Dəhlizində tərəflər birgə iradə nümayiş etdirərək Avropanın enerji təhlükəsizliyindəki strateji rolunu davam etdirir. Habelə, AÇG yatağında hasilatın sabitləşdirilməsi və maksimum səviyyəyə çatdırılması ilə yanaşı, yeni layihələrin icrası istiqamətində də genişlənir.

### "bp"nin Cəbrayılda "yaşıl enerji" planları...

Azərbaycan və Böyük Britaniya arasında iqtisadi əməkdaşlığın müasir gündəliyində qeyri-neft sahələri üzrə birgə layihələrin icrasının sürətləndirilməsi, "yaşıl enerji" sektorunda sərmayə qoyuluşlarının təşviqi ön planda dayanır. 2021-ci il mayın 20-də "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Beynəlxalq Ticarət Departamenti arasında təmiz enerjiyə keçid sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Sənəddə iki ölkə arasında enerji məsələlərində, o cümlədən bərpaolunan enerji, enerji səmərəliliyi, aşağıkarbonlu texnologiyalar, liberal enerji bazarına keçid və elektrik şəbəkələri kimi sahələrdə əməkdaşlıq və iqlim dəyişikliyi probleminin həlli imkanlarının araşdırılması nəzərdə tutulur.



Ötən il bərpaolunan enerji sahəsində birgə əməkdaşlığın ən uğurlu modeli kimi SOCAR-la "Şəfəq" Günəş Elektrik Stansiyasının inşasına dair saziş imzalanıb. Fəal tikinti mərhələsinə tezliklə start veriləcək. Bu layihə "bp" ilə "yaşıl enerji" və neft-qaz sənayesinin dekarbonizasiyası sahəsində əməkdaşlığımızın qabaqcıl nümunəsidir. Azad ərazilərdə - Cəbrayılda icra olunan "Şəfəq" GES-də illik təxminən 500 milyon kilovat-saat elektrik enerjisi istehsalı gözlənilir ki, bu da ildə 120-150 milyon kubmetr təbii qaza qənaət, 260-330 min ton karbon emissiyasının azaldılması deməkdir.

### 5 milyard funt-sterlinq həcmində kredit zəmanəti

Tərəflər iqtisadiyyatın modernləşdirilməsi və diversifikasiyası üzrə maliyyə və peşəkar xidmətlər, texnologiya, süni intellektin tətbiqi, kiçik və orta sahibkarlıq fəaliyyətinin təşviqi, kibertəhlükəsizlik, elm və təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlıq imkanlarını dəyərləndirilərək mümkün istiqamətlər müəyyənləşdirilib. İnfrastrukturun inkişafı istiqamətində Orta Dəhlizdən istifadə, qarşılıqlı iqtisadi investisiya, tekstil sənayesi üçün ikitərəfli Ticarət və İnvestisiya Platformasının yaradılması imkanlarının müəyyənləşdirilməsi, su təsərrüfatı və tullantıların idarə edilməsi, nəqliyyat, aviasiya, rəqəmsal tikinti və mina təmizləmə sahələrində əməkdaşlıq nəzərdə tutulub.

Birgə Hökumətlərarası Komissiyanın həmsədri Qaret Tomas bildirib ki, qeyri-neft sektorunda müxtəlif layihələrdə əməkdaşlığı genişləndirilməsinə hazırıq. Enerji keçidi, nəqliyyat və infrastruktur sahələrində prioritet layihələr üçün Birləşmiş Krallığın İxrac Kredit Agentliyi (UKEF) tərəfindən nəzərdə tutulan 5 milyard funt sterlinq həcmində kredit zəmanəti isə ikitərəfli iqtisadi tərəfdaşlığımızın daha da möhkəmləndirilməsinə mühüm töhfə verə bilər.

Beləliklə, iki ölkə arasında əldə olunan razılaşmalar iş mühasibətlərinin daha da yaxşılaşdırılmasına imkan verəcək. İqtisadi artımı sürətləndirməyə yönəlmiş planlar bu sənədlərin əsasını təşkil etməklə energetika, infrastruktur və təhsil sahələrində ixracın və göstərilən xidmətlərin genişlənməsinə təkan verəcək. Yeni razılaşmalar növbəti illərdə mövcud əməkdaşlığı daha da möhkəmləndirəcək.

*E.CƏFƏRLİ*

# Daha əhatəli hesabatlar hazırlanacaq

## Valyuta Fondunun missiyası ölkəmizdə maliyyə vəziyyəti ilə bağlı hesabatı müzakirə edir

Aprelin 28-də Beynəlxalq Valyuta Fondunun (BVF) Mərkəzi Asiya, Qafqaz və Monqolustan üzrə Regional İnkişafa Dəstək texniki dəstək missiyasının Azərbaycana səfəri başlayıb. Mayın 2-dək davam edəcək missiya zamanı dövlət təsisatları üzrə maliyyə əməliyyatlarının, balans məlumatlarının mərhələli şəkildə hesabatlara daxil edilməsi, bununla da dövlətin maliyyə vəziyyəti ilə bağlı daha əhatəli hesabatın hazırlanması əsas müzakirə mövzularını təşkil edəcək.

Səfər çərçivəsində Maliyyə Nazirliyi ilə yanaşı, Mərkəzi Bank, Qarabağ Dirçəliş Fondu, Mənzil İnşaatı Dövlət Agentliyi, İpoteka və Kredit Zəmanət Fondu və Sosial Xidmətlər üzrə Dövlət Agentliyi ilə görüşlərin keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, maliyyə hesabatlarının müvafiq təlimatın prinsiplərinə uyğun qaydada tərtib edilməsi müasir dövrün əsas çağırışlarındandır. Bu məqsədlə qurumlar arasında koordinasiyalı işin təşkili və potensialın artırılması xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar BVF tərəfindən hər il aidiyyəti qurumların iştirakı ilə texniki yardım missiyaları təşkil edilir. Missiyalar çərçivəsində hesabatların tərtibinə dair problemlər araşdırılır, onların aradan qaldırılması, eləcə də məlumat mübadiləsi ilə bağlı müzakirələr aparılır.

### Maliyyə statistikasının vəziyyəti qənaətbəxşdir

Beynəlxalq Valyuta Fondu ölkəmizin makroiqtisadi göstəriciləri, qeyri-neft-qaz sektorunun inkişaf perspektivləri, vergi sahəsində islahatlar, işğaldan azad olunmuş ərazilərimizin iqtisadi reinteqrasiyası barədə də daim maraqlanır. Fond, eyni zamanda, Azərbaycanda fiskal islahatlarla bağlı araşdırma və tədqiqatlar aparır və yekun hesabtlar hazırlayır. Hesabatda ölkədə dövlət maliyyə statistikasının vəziyyəti (GFS) əks etdirilir. Ötən illər ərzində Azərbaycanın GFS-in tərtibi və yayımlanması üçün institusional infrastrukturun qurulması istiqamətində addımlar atması hesabatda əks olunub. İnstitusional baxımından, GFS-in dövlət büdcəsi, büdcədənkənar fondlar, sosial sığorta fondları, digər dövlət və yerli əhəmiyyətli fondların fəaliyyəti barədə məlumatlılığı əks etdirməsi bildirilib. Bundan əlavə, büdcə sisteminin təkmilləşdirilməsi üzrə aparılan islahatlar çərçivəsində qurulmuş Orta Müddətli Xərclər Çərçivəsi Mərkəzinin fəaliyyəti, vəzifə və səlahiyyətləri barədə məlumatlar əyd edilib.

Ümumilikdə, hesabatda Azərbaycanda GFS-in tərtib olunmasının şəffaf olması önə çıxır. Bununla yanaşı, müvafiq istiqamətdə institusional infrastruktur üzrə inkişaf imkanlarının olması barədə təklif və tövsiyələr də yer alıb. İnkişaf etmiş fiskal şəffaflığın daha əlverişli investisiya mühiti təmin etməklə iqtisadi inkişafı daha da sürətləndirəcəyi də bildirilib.

Həmçinin Beynəlxalq Valyuta Fondu Azərbaycan hökuməti ilə IV Maddə Məsləhətləşmələri üzrə görüşləri davam etdirir və bu istiqamət üzrə məsələhətləşmələrdə ölkəmizdə iqtisadi artımın sürətlənməsi və inflyasiyanın azalması daxil olmaqla son iqtisadi inkişaflar, perspektivlər və risklər yer alır.




### İqtisadi inkişaf və maliyyə intizamı ilə bağlı gözləntilər nikbindir

Qeyd edək ki, BVF Azərbaycanda iqtisadi inkişaf və maliyyə intizamı ilə bağlı nikbin gözləntilərə malikdir. Fondun bir müddət əvvəl qlobal iqtisadiyyatla bağlı açıqladığı proqnozlarda Azərbaycanla bağlı iqtisadi gözləntiləri nikbin ssenarilərə əsaslanır. "World Economic Outlook" hesabatında qeyd edilir ki, Azərbaycanın makroiqtisadi göstəriciləri müsbət dinamikasını qoruyub saxlayacaq, 2025-ci il üzrə iqtisadi artım 3,5 faiz gözlənilməklə ÜDM-in nominal həcmi 134 milyard manat və 78,8 milyard dollar proqnozlaşdırılır. 2026-cı ildə isə ölkəmizdə ÜDM-in nominal həcmi 2,5 faiz real artımla 139, 2 milyard manat, 2027-ci ildə 2,4 faiz real artımla 145,8 milyard manat, 2028-ci ildə 2,4 faiz real artımla 153,6 milyard manat, 2029-cu ildə isə 2,5 faiz real artımla 162,2 milyard manat səviyyəsində fərz edilir.

BVF ekspert icması Azərbaycanla bağlı iqtisadi artım ssenarilərini enerji dəyişiklikləri üzərində deyil, əsas etibarilə ümumi iqtisadi güc və xüsusilə də qeyri-neft mənbələrinə əsaslanmaqla tərtib edib. Onların qənaətinə görə, Azərbaycan iqtisadiyyatının enerji amili üzərində dayanmadığı son illərin əlavə dəyər artımında özünü göstərməkdədir. Qeyri-neft sektorunun artmasında əsas amillər biznes sektorunun fəallığının yüksəlməsi, tikinti-inşaat, xidmət, turizm sahələrində yeni əlavə dəyərin formalaşması, neftdən kənar sahələrdə yığım mənbələrinin genişlənməsi, şəffaflaşma ilə bağlı görülən tədbirlər, bölgələrdə yeni müəssisələrin yaradılmasıdır.

### Bank, kredit, qiymətli kağızlar bazarında yeniliklər

Missiya həyətinin yeni səfəri çərçivəsində dövlət təsisatları üzrə apardığı müzakirələr isə maliyyə idarəetməsi sahəsində yeni imkanların əldə edilməsinə imkan yaradacaq. Belə ki, BVF komandası ilə faydalı məsləhətləşmələrin nəticəsində maliyyə əməliyyatlarının, balans məlumatlarının mərhələli şəkildə hesabatlara daxil edilməsi, bununla da dövlətin maliyyə vəziyyəti ilə bağlı daha əhatəli hesabatın hazırlanması mümkün olacaq. Eyni zamanda, Dövlət Maliyyə Statistikası üzrə Təlimatın prinsiplərinə uyğun qaydaların hazırlanması bank, kredit, qiymətli kağızlar bazarında mühüm yeniliklərə imkan yaradır. Belə ki, pul və maliyyə statistikası hesabatının tərtibi və təqdim edilməsi, qiymətli kağızlar bazarında dövlət istiqrazları, Mərkəzi Bankın notları, repo əməliyyatları, investisiya korporativ qiymətli kağızlar (səhmlər və istiqrazlar) və digər qiymətli kağızlarla əməliyyatlara dair hesabat formalarının təkmilləşdirilməsində mühüm rol oynayır.

*E.CƏFƏRLİ*

# Saziş imzalandı - ABŞ nə vəd edir?

## Müharibə bitəcək, yoxsa...

### Kiyev Ağ Ev - Kreml danışıqlarının nəticəsini gözləməli olacaq

ABŞ və Ukrayna arasında faydalı qazıntılara dair saziş imzalanıb - saziş təbii sərvətlərin satışından əldə edilən gəlirlərə çıxışı özündə əks etdirir. Bu barədə "Bloomberg" xəbər yayıb. Bildirilib ki, müqavilə birgə investisiya fondunun yaradılmasını, iki ölkə arasında ortaq aktivlərin və imkanların Ukraynanın iqtisadi dirçəlişini sürətləndirə biləcəyini" təmin etmək üçün nəzərdə tutulmuş iqtisadi tərəfdaşlığı nəzərdə tutur. ABŞ-ın maliyyə naziri Skott Bessent bildirib ki, saziş Tramp administrasiyasının azad, suveren və uzunmüddətli firavan Ukraynaya əsaslanan sülh prosesinə sadiqliyi haqda bir mesajıdır. Nazirin sözlərinə görə, ilk 10 ildə fondun gəlirlərinin bölüşdürülməyəcəyi gözlənilir; yalnız yeni layihələrə investisiya qoymaq və ya ölkəni bərpa etmək mümkün olacaq. "Bu şərtlər daha sonra müzakirə olunacaq", - deyə Ukraynanın iqtisadi inkişaf naziri Yuliya Sviridenko bildirib.

## Yubanma səbəbi...

Qeyd edək ki, bu ilin aprelin 18-də Kiyev və Vaşinqton arasında resurslarla bağlı müqavilə bağlamaq niyyəti haqqında memorandum imzalanmışdı və bu memorandumda saziş üzərində işi sürətləndirmək barədə razılığa gəlinmişdi. Sənəddə Vaşinqtonun 2022-ci ildən bəri Kiyevə əhəmiyyətli maliyyə və maddi dəstək verdiyi göstərilir, tərəflərin Ukraynada davamlı sülhü və ABŞ-Ukrayna arasında daha güclü tərəfdaşlığı arzuladıqları, bu tərəfdaşlığın bir hissəsi olaraq yenidənqurma investisiya fondu yaratmaq niyyəti öz əksini tapırdı. Memoranduma əsasən, danışıqlar üzrə qruplar saziş üzərində işi mümkün qədər tez imzalamaq üçün aprelin 26-dək başa çatdırmalı idilər.

İmzalanma hələ fevralın 28-də Ukrayna prezidenti Vladimir Zelenskinin Vaşinqtona səfəri zamanı baş tutmalı idi - lakin bu baş vermədi. Zelenski ilə Tramp arasında məlum "mübahisə"dən sonra Ukrayna nümayəndə heyətindən Ağ Evi tərk etmək tələb olundu. Martın 4-də ABŞ-ın Kiyevə hərbi yardımı dayandırması xəbərindən sonra (onlar bunu bir neçə gündən sonra bərpa etdilər) Vladimir Zelenski Ağ Evdəki görüşün gözlənildiyi kimi keçmədiyinə təəssüfləndiyini bildirdi. "Mən və komandam Prezident Trampın güclü rəhbərliyi altında davamlı sülhə nail olmaq üçün işləməyə hazırıq",- deyən Zelenski Ukraynanın istənilən vaxt və istənilən əlverişli formatda" resurs sazişi imzalamağa hazır olduğunu dilə gətirdi: "Biz bu sazişi təhlükəsizliyin və etibarlı təhlükəsizlik təminatlarının gücləndirilməsi istiqamətində atılan addım kimi qiymətləndiririk və onun səmərəli işləyəcəyinə ürəkdən ümid edirik".

Beləliklə, Ukraynanın bu sənədi imzalaması çox şeydən xəbər verir. Xatırladaq ki, imzalanan sənədin ilk variantı "Bərpa İnvestisiya Fondunun Qaydaları və Şərtlərinin yaradılması haqqında İkitərəfli Saziş" adlanırdı, 11 bənddən ibarət idi.

## Vaşinqton nə verir - Kiyev nə istəyir?

İmzalanan yeni saziş isə əvvəlkindən fəqlənir. Yeni sazişə əsasən yerin təki üzərində tam mülkiyyət və nəzarət Ukraynada qalır. Harada və nəyin hasil olunacağını müəyyən edən Ukrayna dövlətidir. Yerin təki Ukraynanın mülkiyyətində qalır. ABŞ və Ukrayna arasında bərabər tərəfdaşlıq qorunacaq - Fond 50/50 nisbətində yaradılıb və heç bir tərəf həlledici səsə malik olmayacaq.

Eyni zamanda, milli mülkiyyət hüququ qorunur. Belə ki, imzalanan saziş özəlləşdirmə proseslərində və ya dövlət şirkətlərinin idarəçiliyində dəyişiklik nəzərdə tutmur. "Ukrnafta" və "Energoatom" kimi şirkətlər dövlətə məxsusdur.

İmzalanan sazişdə Ukraynanın ABŞ qarşısında hər hansı borc öhdəliyindən bəhs edilmir. Sazişin həyata keçirilməsi hər iki ölkəyə bərabərhüquqlu əməkdaşlıq və investisiyalar hesabına iqtisadi potensialını artırmağa imkan verəcək. Müqavilə Konstitusiyaya uyğundur və Ukraynanın Avropaya inteqrasiya kursunu dəyişdirmir. Fond yalnız yeni lisenziyalardan əldə edilən gəlirlə doldurulacaq. Söhbət kritik materiallar və neft-qaz sahəsində layihələr üçün yeni lisenziyalardan əldə olunan vəsaitin 50 faizindən gedir ki, bu da Fond yaradıldıqdan sonra büdcəyə köçürüləcək. Artıq başlanmış layihələrdən əldə edilən gəlirlər və ya planlaşdırılan büdcə gəlirləri Fonda daxil edilmir. Müqavilə gələcək strateji əməkdaşlığı nəzərdə tutur.

Bundan başqa, Fondun fəaliyyət göstərməsi üçün yalnız büdcə kodunda dəyişiklik etmək lazım gələcək və bu halda Saziş Ali Rada tərəfindən ratifikasiya edilməlidir.

Yeni fond DFC agentliyi vasitəsilə ABŞ hökuməti tərəfindən dəstəklənəcək. DFC-nin Ukraynaya ABŞ, Avropa İttifaqı və digər ölkələrdən investisiya və texnologiyalar cəlb edəcəyi gözlənilir. Müqavilə vergi zəmanətlərini təmin edir. Fondun gəlirləri və töhfələri nə ABŞ-da, nə də Ukraynada vergiyə cəlb edilmir, buna görə də sərmayə qoymaq ən böyük nəticəni verə bilər

Bundan əlavə, Ukrayna lazım bildiyi təqdirdə əlavə töhfələr verə bilər - söhbət gələcək onilliklər üçün əməkdaşlıqdan gedir.




## Tramp zəmanət vermir - Kelloq güzəştləri "sayır"...

ABŞ prezidenti Donald Tramp bildirib ki, Vladimir Putin Ukraynada müharibəni bitirmək niyyətində deyildi, lakin indi güzəştə getməyə məcbur olacaq. Amerika lideri bu barədə müsahibəsində Rusiya-Ukrayna münaqişəsinin həlli perspektivlərini şərh edərkən danışıb. "Məncə, o, bu müharibəni bitirməyi planlaşdırmayıb. Mən seçkidə qalib gələndən sonra danışdıq. Düşünürəm ki, razılığa gələcəyik. Mən buna zəmanət verə bilmərəm, razılaşma razılaşmadır və hər şey ola bilər, amma düşünürəm ki, biz bunu edəcəyik".

Amerika prezidentinin fikrincə, əgər o, seçkilərdə qalib gəlməsəydi, Putin hücumlarını davam etdirəcəkdi və bu, qurbanların sayının əhəmiyyətli dərəcədə artmasına səbəb olacaqdı. "Mən Ukraynaya hörmət edirəm. Ukraynalılar gözəl döyüşçülərdir, amma deməliyəm ki, bizim texnikamız olmasaydı, çoxlarının dediyi kimi, bu müharibə çox tez bitərdi", - o vurğulayıb.

ABŞ prezidenti ötən həftə sonu Vatikanda yerləşən Müqəddəs Pyotr Bazilikasında Vladimir Zelenski ilə görüşünü də "rahatlıq anı" adlandırıb. "Bu, mənim müharibəm deyil, amma mən bunu həll etməyə çalışmaq istəyirəm, yəqin ki, hər həftə təxminən 5 min gənc əsgər, ruslar və ukraynalılar ölür. Biz də Ukraynada çox böyük pullar xərcləyirik", - Tramp əlavə edib.

ABŞ dövlət katibi Marko Rubio X platformasındakı hesabında yazıb ki, Vaşinqton və Kiyev arasında nadir torpaq metallarına dair razılaşma silahlı münaqişənin həlli istiqamətində atılan mühüm addımdır.

ABŞ Prezidentinin Ukrayna üzrə xüsusi nümayəndəsi Keyt Kelloq "Foks Nyus" telekanalına müsahibəsində bildirib ki, Ukrayna tərəfi münaqişənin həlli üçün ərazi güzəştlərinə getməyə hazırdır, lakin bunu hüquqi cəhətdən tanımaq istəmir. "Ukraynalılar Rusiyanın faktiki işğal etdiyi əraziləri hüquqi cəhətdən əbədi olaraq tanımasalar da, güzəştə hazırdırlar. Onlar bu variantla razılaşırlar. Başa düşürlər ki, atəşkəs əldə olunanda tərəflərdən hər biri tutduğu mövqelərdə qalacaq. Məhz buna hazırdırlar. Keçən həftə mənə dedilər ki, bu sazişi artıq müzakirə ediblər", - deyə Kelloq qeyd edib.

"The New York Times"ın mənbələrə istinadən verdiyi məlumata görə, sənəddə Kiyev üçün təhlükəsizlik təminatlarının olmaması onları müvəqqəti güzəştə məcbur edir - nəşrin mənbələrindən biri bildirib ki, ABŞ danışıqların ilkin mərhələsində təhlükəsizlik təminatı ideyasından birmənalı imtina edib.

## Sülhün ilk raundu nə vaxta təsadüf edə bilər?

Bəzi ekspertlər iddia edirlər ki, sazişin imzalanması həm atəşkəsin bağlanmasına, həm də sülhün birinci raundunun reallaşmasına ümidləri artırır. Buna əsas səbəb kimi isə Ukraynanın və ABŞ-ın sırf iqtisadi maraqlara köklənməsi ön plana çıxarılır. Başqa sözlə, Ukrayna müharibə prosesində "taym-aut" götürərək özünün iqtisadi itkilərinin bərpasına çalışacaq. Rusiyanın bu müddət ərzindəki davranışları isə Vaşinqton-Moskva əlaqələrinin gələcək perspektivindən daha çox asılı olacaq. Hətta "Financial Times"ın 2025-ci ilin əvvəlində dərc etdiyi proqnoza görə də, bu il Rusiya və Ukrayna sülh nizamlanmasına dair razılığa gələcəklər: Kiyev beynəlxalq təhlükəsizlik zəmanəti müqabilində Moskvanın münaqişə zamanı əldə etdiyi ərazilər üzərindəki faktiki nəzarətini tanıyacaq. Razılaşmanın şərtlərindən biri Ukraynanın NATO-ya daxil olması prosesinin qeyri-müəyyən müddətə dondurulması olacaq.

Bunu istisna edənlər də var - bəzi politoloqlar Rusiya ilə Ukrayna arasında sülhün tezliklə bağlanacağına şübhə edirlər. Ukrayna ölkədəki hərbi vəziyyəti avqusta qədər uzadıb - Tramp danışıqlardan çıxmaqla hədələyir, Avropa isə Ukraynaya qoşun göndərib-göndərməmək barədə qərar verə bilmir. Siyasi texnoloqlar ortada olan mənzərəni belə təsəvvür edirlər - təklif oluna biləcək konkret, real plan yoxdur. Birləşmiş Ştatlar epizodik olaraq kompromis üçün müəyyən məqamlar tapmağa çalışır - amma real sülh formatı hazırlanmır. Onların düşüncəsinə görə, hazırki proseslər münaqişənin sadəcə konfiqurasiyasını dəyişəcək. Hətta Trampın danışıqlardan çıxaraq Ukraynaya külli miqdarda silah verməyə başlayacağını belə ehtimal edənlər tapılır. Amma sülh prosesinin inkişaf etdirilməsi bütövlükdə Vaşinqton-Moskva münasibətlərinin gələcəyindən asılıdır.

***P.İSMAYILOV***

# BCM-ni tərk edən 3-cü ölkə...

## Budapeşt bu məhkəmənin Nizamnaməsini qəbul etməyib

Macarıstan Beynəlxalq Cinayət Məhkəməsini tərk edib - qeyd edək ki, aprelin 29-da Macarıstan parlamentində ölkənin BCM-in üzvlüyündən çıxması ilə bağlı qərar qəbul edilib. Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto "X" sosial şəbəkəsində qeyd edib ki, BCM öz qərəzsizliyini və etibarını itirdiyinə və siyasiləşmiş instituta çevrildiyinə görə, Budapeşt bu qurumu tərk etmək qərarına gəlib. Xatırladaq ki, Macarıstan parlamentində BCM-ni tərk etməklə bağlı məsələ keçən ayın əvvəlində müzakirəyə çıxarılıb. Həmin zaman Macarıstan Baş nazirinin aparat rəhbəri Qergeli Qulyaş jurnalistlərə açıqlamasında bildirmişdi ki, digər BCM üzvü olan ölkələrdən fərqli olaraq, Macarıstan heç vaxt bu məhkəmənin nizamnaməsini qəbul etməyib -o, bunu Roma statutunun Macarıstanın daxili qanunvericiliyinin tərkib hissəsi olmaması ilə əsaslandırıb: "Bizim aydın hüquqi mövqeyimiz ondan ibarətdir ki, Macarıstanda BCM-nin Nizamnaməsinə əsasən heç kim həbs edilə və burada heç bir şəxsə qarşı hər hansı bir "proses" başlana bilməz", - deyə Q.Qulyaş Budapeştin Beynəlxalq Cinayət Məhkəməsinin siyasiləşmiş instituta çevrildiyi üçün daha məhkəminin üzvü olmaq istəmədiyini vurğulamışdı.

## Tərk etmə prosesi hansı halda mümkündür?

Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunun 127-ci maddəsinə görə, BCM-yə üzv olan istənilən ölkə qurumu tərk edə bilər. Lakin BCM-in üzvlüyündən çıxmaq yalnız bu halda mümkündür; Üzv ölkənin rəhbərliyi əvvəlcə BMT-nin Baş katibinə məktub ünvanlamalı və məktubda üzvlükdən çıxmanın səbəbləri qeyd olunmalıdır. Bir il ərzində BMT-nin Baş Katibliyində həmin ölkənin müraciətinə baxılır və yekun qərar qəbul edilir. Üzvlükdən çıxarılma ilə bağlı qərar yalnız bir ildən sonra qüvvəyə minir. Roma Statutun 127-ci maddəsində, həmçinin vurğulanır ki, hər hansı ölkə BCM-ni tərk etsə belə, cinayətlərin araşdırılması istiqamətində Roma Statutundan irəli gələn öhdəliklərini yerinə yetirməlidir.

## BCM-ni tərk edən ölkələr




Macarıstandan əvvəl Burundi (2017) və Filippin BCM-in üzvlüyündən çıxıblar. Macarıstan qurumu tərk edən üçüncü ölkədir. Bəzi mənbələrin məlumatlarına görə, həm Brundinin, həm də Filippinin BCM-ni tərk etməsinin səbəbi qurumun həmin ölkələrdə törədilən cinayətlərə düzgün hüqiqi qiymət verməməsi olub.

## BCM-in təsir mexanizmləri yetərli deyil

Məsələ ilə bağlı politoloq Züriyə Qarayeva "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, BCM mühakimə edən təşkilat olsa da, qurumun o qədər güclü və yetərli təsir mexanizmləri yoxdur; "BMT Beynəlxalq Cinayət Məhkəməsinin verdiyi həbs orderlərini icra edə bilməz, çünki onun 193 üzvündən hamısı məhkəməni tanımır. Digər ölkələrin köməyindən asılı olan BCM-in indiyədək effektiv mexanizmləri olmayıb. Məsələn, məhkəmə 2023-cü ilin yazında Rusiya prezidenti Vladimir Putinin həbsinə order verib. Putin Rusiyada həbs oluna bilməz və o, ölkəsini tərk edib Roma statutunu qəbul edən ölkənin ərazisinə səfər etdiyi halda həmin ölkənin hökuməti onu həbs edib Haaqa məhkəməsinə verə bilər. Nəzərə alaq ki, Putin onu həbs edəcək ölkələrə səfər etməyib. Buna görə də bu həbs orderinin həyata keçməsi hələ ki, mümkünsüz görünür.

İllik büdcəsi 160 milyon dollar olan BCM indiyədək cəmi 40 iş üzrə qərar verib və 10 nəfər haqqında hökm çıxarıb. Məhkəmə Sudanın keçmiş lideri Ömər əl-Bəşir və Liviyanın öldürülən prezidenti Müəmmər Qəddafinin həbsinə order verib. Məhkəmənin əsas problemlərindən biri onun institusional polis qüvvələrinin olmamasıdır. Həbs qərarı olan şəxslərin BCM-yə gətirilməsi ilə bağlı problemlər var. Bəzi üzv dövlətlər məhkəminin orderlərini yerinə yetirməkdən çəkinir və məhkəmə ilə əməkdaşlıq etmirlər. Əl-Bəşir, Putin, Netanyahu haqqında həbs qərarının icra olunmaması buna gözəl nümunədir".

## Macarıstan öz qərarında haqlıdır

Politoloq Tural İsmayilov qəzetimizə açıqlamasında bildirib ki, Beynəlxalq Cinayət Məhkəməsi bu günə qədər dünyanın müxtəlif ölkələrində insanlıq əlehinə törədilən bir sıra cinayətlərə düzgün hüquqi qiymət verməyib; "Son zamanlar BCM-in atdığı addımlar bu qurumun nə dərəcədə siyasiləşmiş təşkilata çevrildiyini deməyə əsas verir. Bu günə qədər BCM bir çox ölkələrə qarşı münasibətdə qeyri-obyektiv və ədalətsiz mövqe sərgiləyib və yalnış addımlar atıb. Bu da qurumun fəaliyyəti ilə bağlı narazılığın artmasına gətirib çıxarıb. Bütün bunları nəzərə alan Macarıstan hökuməti də çox düzgün və doğru qərar verib. Avropa İttifaqının Macarıstana təzyiqlərinə rəğmən, Budapeştin BCM-ni tərk etməklə bağlı qərar qəbul etməsi bu ölkənin nə qədər güclü və haqlı mövqedə olduğunu göstərir. Eyni zamanda, Budapeştin bu addımı bir daha onu sübut etdi ki, BCM-in qərarlarından özlərinin çirkin məqsədləri üçün istifadə edən dövlətlər uğur qazana bilməzlər. Onu da qeyd edim ki, BCM müharibə cinayətləri ilə bağlı qərarlarında və dövlətlərə qarşı münasibətində qərəzsiz, əldalətli və obyektiv yanaşmadan çıxış etməlidir".

***Yunis ABDULLAYEV***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**





# “İsraildə Azərbaycan Evi”ndə görüş...

Bu gün dünyanın bir çox ölkəsində Azərbaycan evi fəaliyyət göstərir. 2019-cu ildən etibarən bir sıra xarici ölkələrdə yaradılan Azərbaycan evlərinin fəaliyyəti milli adət-ənənələrimizin, mədəniyyətimizin, dilimizin təbliği və qorunması, ölkəmizlə bağlı həqiqətlərin dünyaya çatdırılması istiqamətlərində dəyərləndirilə bilər. Hansı ki, qeyd edilən məsələlər inkişaf mərhələsindən və yaşadığı dövrdən asılı olmayaraq, bütün dövlətlər, xalqlar üçün hər zaman aktual və prioritetdir.

Tolerantlıq nümunəsi olan ölkəmizdə də hər zaman multikultural dəyərlərə və ənənələrə həssaslıqla, hörmətlə yanaşılıb. Azərbaycan, eyni zamanda, millətlərarası və dinlərarası münasibətlərin inkişaf etdirilməsi baxımından da nümunəvi ölkə kimi xarakterizə olunur. Azərbaycanın tarix boyu ev sahibliyi etdiyi xalqlar sırasında yəhudiləri xüsusilə vurğulamaq yerinə düşər.

## Azərbaycanda anti-semitizm mövcud olmayıb...

Bu günlərdə İsrailin Azərbaycana yeni təyin olunmuş səfiri Ronen Kraus “İsraildə Azərbaycan Evi” diaspor qurumunun, ölkədəki Dağ Yəhudilərinin Koordinasiya Mərkəzinin və Akko Şəhər Dağ Yəhudiləri İcmasının qonağı olub. Görüşdə bir çox təşkilat və icma rəhbərləri iştirak edib. Azərbaycan və İsrail mədəni əlaqələrinin, hər iki xalq və dövlət arasındakı dostluq və müttəfiqlik münasibətlərinin möhkəmlənməsinə həsr edilmiş görüş dəyirmi masa formatında keçirilib.

Məclisi giriş sözü ilə açan “İsraildə Azərbaycan Evi”nin direktoru, Dağ Yəhudilərinin Koordinasiya Mərkəzinin rəhbəri, Akko Şəhər Dağ Yəhudiləri İcmasının sədri Nexamiya Şirin Mixaeli diaspor qurumunun necə ərsəyə gəlməsi və onun fəaliyyəti ilə bağlı məlumat verib. O, xalqlarımızın hələ min illər öncəyə söykənən dostluq və qardaşlıq münasibətlərindən söz açıb. İcma sədri bildirib ki, Azərbaycan dünyada yeganə ölkədir ki, heç bir zaman anti-semitizm mövcud olmayıb və burada yəhudilərlə bərabər bütün millətlər azad və xoşbəxt yaşayırlar.

## Ali dəyərlərə sadiq tolerant ölkə

Səfir Ronen Kraus 2011-ci ildə Bakıda İsrail səfirliyində müşavir işlədiyi illəri məmnunluqla xatırlayaraq bildirib ki, Azərbaycan dünyada qonaqpərvər və ali dəyərlərə sadiq tolerant ölkədir. Burada hər xalq azad və xoşbəxt yaşayır. Səfir Azərbaycanla münasibətlərin önəmindən də söz açıb: “Bundan sonra da Azərbaycan və İsrail əlaqələri artan xətlə inkişaf edəcək”.

## Bütün inanclar azaddır!

Nexamiya Şirin Mixaeli, həmçinin qeyd edib ki, Azərbaycanda bütün inanclar azaddır: “Xüsusən Yəhudi xalqı ilə Azərbaycan xalqı min illərdir ki, qohumlaşmış və qardaşlaşmış xalqdır. Hər iki qardaş xalq ən çətin günlərdə bir-birinə dəstək olub və bu, əsrlərin sınağından çıxmış bir qardaşlıqdır. Bu gün Prezident İlham Əliyev Ulu Öndərin siyasi irsini layiqincə davam etdirərək bu dostluq və qardaşlığı daha da möhkəmləndirməkdədir. Qətiyyətlə demək olar ki, İlham Əliyev və onun rəhbərlik etdiyi Azərbaycan dövləti dünyada İsrailin ən etibarlı və ən yaxın dostu və müttəfiqidir. Bunu hər bir yəhudinin və hər bir İsraillinin dilindən eşitmək olar”.

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

## Azərbaycan tərəfindən bütün imkanlar yaradılıb!

Daha sonra Kiryat-Byalik şəhərindəki Dağ Yəhudiləri icmasının sədri Adil Danilov da Azərbaycandakı tolerantlıq barədə fikirlərini bölüşüb: “Azərbaycan dünyada İsraildən sonra yəhudilərin ən azad və təhlükəsiz yaşadığı ölkədir. Burada hər kəs inancını rahat ifadə edə bilir. Bunun üçün Azərbaycan dövləti tərəfindən bütün imkanlar yaradılıb. Tarix boyu hər iki xalq mehribanlıq şaitində, doğmalıq içərisində yaşayıblar. Bu, dünyada bənzəri olmayan haldır”.

Dəyirmi masa iştirakçıları bir daha Azərbaycan dövlətinə və xalqına öz sarsılmaz dəstəyini ifadə edərək, daim dost və qardaş Azərbaycan xalqının və dövlətinin yanında olduqlarını bildiriblər.

Göründüyü kimi, Azərbaycan dünya üçün nümunə olan bir ölkədir. Ölkəmizdəki tolerantlıq dəyərləri və multikultural yaşam ənənəsi sözün həqiqi mənasında dünyanın heç bir yerində rast gəlinməyən nadir bir nümunədir. Bütün bunlar isə ölkə başçısının parlaq və müdrik siyasətinin nəticəsidir.

*Yeganə*

# Ağır allergiyalardan biri...

## Ümumdünya Astma ilə Mübarizə Günüdür

Dünyada astma və digər allergik xəstəliklərdən əziyyət çəkənlərin sayı hər gün artmaqdadır. Bu gün astma dedikdə müxtəlif mənşəli təngnəfəslik başa düşülür. Astma uşaqlarda ən çox rast gəlinən xroniki xəstəliklərdəndir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, dünyada 360 milyon insanın astma xəstəliyindən əziyyət çəkdiyi və hər il 400 mindən çox insanın xəstəlikdən öldüyü bildirilir.

Alimlər belə qənaətə gəliblər ki, bu xəstəliyin artmasının əsas səbəbi Qərb həyat tərzinin geniş yayılması, kənd əhalisinin şəhərlərə üz tutması, ağacların kəsilməsi, yaşıllığın azalmasıdır. İngiltərədə və Yeni Zellandiyada astma xəstəliyini “milli fəlakət” adlandırırlar.

Astma geniş yayılmış bir xəstəlik olduğu üçün maarifləndirmə məqsədi ilə hər il may ayının ilk həftəsi Ümumdünya Astma ilə Mübarizə Günü kimi qeyd edilir. GARD (Xroniki Tənəffüs Xəstəliklərinə Qarşı Qlobal Alyans) çərçivəsində hər il ictimaiyyət və səhiyyə işçiləri üçün təlim və maarifləndirmə toplantıları təşkil edilir.

## Astmanın əlamətləri hansılardır?

Astma uzun müddətli bir ağciyər xəstəliyidir. Astma xəstələrində tənəffüs yolları həssasdır və müəyyən hərəkətverici təsirə məruz qaldıqda iltihablanır, daralır və nəfəsalmada çətinlik yaşanır. Astma adətən uşaqlıq yaşlarında başlayır, ancaq hər hansı bir yaşda astmanın inkişaf etməsi də mümkündür. Xəstəliyin yaranma səbəbləri tam aydın deyil, ancaq bilindiyi kimi, ekoloji və genetik amillər insanlarda astmanın inkişafında böyük rol oynayır. Astmanın başlanğıcı və əlamətləri insandan insana görə dəyişir.

## Xəstəliyin müalicəsi...

Astma erkən mərhələdə, başqa sözlə, ağciyərlərə qalıcı ziyan vurmadan asanlıqla idarə oluna bilən bir xəstəlikdir. Xəstəliyi tamamilə müalicə etmək mümkün olmasa da, astma tutmalarını azaltmaq və ya tamamilə aradan qaldırmaq üçün müalicə üsulları mövcuddur. Bu müalicə növləri insanın yaşına, müalicəyə verdiyi reaksiyaya və yaşanan astmanın şiddətinə görə fərqlənə bilər.

## Ağciyərlərə qalıcı ziyan vura bilər

Bronxial genişlənmə bronxodilatator dərmanlarla təmin edilərkən, antiinflamatuar dərmanlarla hücumların sayını azaltmaq məqsədi daşıyır. Dayanıqlı hallarda bioloji agentlərdən istifadə edilə bilər. Astma dərmanlarını həkim tərəfindən təyin olunan dozada və vaxtda istifadə etmək son dərəcə vacibdir. İnhalyasiya edilən dərmanların istifadəsi zamanı tam nəfəs almaq və nəfəsi bir müddət saxlamaq lazımdır. Yenidən istifadə etməzdən əvvəl ağciyərlərdəki hava tamamilə boşaldılmalıdır.

Astma ağciyərlərə qalıcı ziyan vura bilən mühüm bir sağlamlıq problemidir. Xəstəlik zəiflik, stress, narahatlıq, depressiya, öyrənmə problemləri, pnevmoniya, tənəffüs çatışmazlığı, ağciyərin qismən və ya tam çökməsi kimi ağırlaşmalara səbəb ola bilər.



## Xəstəliyi nəzarətdə saxlamaq üçün nə etməli?

Astma nəzarətini çətinləşdirən bir sıra amillər var ki, onlar dərmanlardan düzgün və müntəzəm istifadə etməmək, yoluxucu infeksiyalar, allergenlər, siqaret tüstüsü və kimyəvi maddələr kimi qıcıqlandırıcılara məruz qalmaqdır. Araşdırmalar göstərib ki, xəstələrin dərmanlarını həkiminin tövsiyə etdiyi kimi qəbul etməsi, siqareti tərgitməsi, kök xəstələrin arıqlaması, sağlam və balanslı qidalanma, nizamlı olaraq idmanla məşğul olunması, nəfəs aldığı havanın təmiz olması astmaya nəzarəti asanlaşdırır.

***Yeganə BAYRAMOVA***

# Azercell “ADA Employability Week 2025” təşəbbüsünə qatılıb




Ölkənin lider mobil operatoru “Azercell Telekom” MMC ADA Universitetinin təşkilatçılığı ilə keçirilən “Employability Week 2025” təşəbbüsündə fəal iştirak edib. Proqramın əsas məqsədi tələbələri müasir əmək bazarının tələbləri ilə tanış etmək, onların peşəkar bacarıqlarını inkişaf etdirmək və gələcək karyera imkanlarını genişləndirmək idi.

Proqram çərçivəsində Azercell-in müxtəlif sahələrdə fəaliyyət göstərən mütəxəssisləri tələbələrə emosional zəka, sənaye icmalı, müsahibəyə hazırlıq, iş etikası, innovasiya və sahibkarlıq, şəxsi brendinq kimi mövzularda təlimlər keçiblər. Eyni zamanda, şirkətin İnsan Kapitalının əməkdaşları proqram iştirakçılarına Azercell-də mövcud olan karyera və təcrübə imkanları, eləcə də işə qəbul prosesi barədə ətraflı məlumat təqdim ediblər. Proqramın sonunda Azercell fərqlənən tələbələrə şirkətin yay təcrübə proqramında iştirak etmək imkanı yaradacaq. Tələbələrin adları may ayının 2-də ADA Universitetində baş tutacaq bağlanış mərasimində açıqlanacaq.

# “Nar”ın dəstəyi ilə tələbələr üçün təlimlər keçirilib

Sərfəli təklifləri və regionlara diqqəti ilə seçilən “Nar” Gəncə şəhərində yerləşən Azərbaycan Texnologiya Universitetinin (ATU) tələbələri üçün təlimlər təşkil edib. Bu təşəbbüs tələbələrin peşəkar bacarıqlarını inkişaf etdirmək və onların iş bazarına hazırlığını artırmaq məqsədini daşıyır.

Təlimlərdə mobil rabitənin əsasları ilə bərabər əmək bazarında təcrübə qazanmaq, eləcə də, uğurlu karyera hədəflərinin seçilməsi istiqamətində faydalı biliklər təqdim edilib.

Bundan başqa, universitetin nəzdindəki “Nar” laboratoriyasının avadanlıqlarının təqdimatı və işləmə prinsipləri ilə tanışlıq məqsədilə, universitetin müəllim heyətinə xüsusi təlim keçirilib. Bu təlim sayəsində tələbələr mobil rabitə şəbəkəsini təhsil aldıqları müddətdə öz müəllimlərindən öyrənə biləcək və təhsillərini təcrübəli kadr kimi başa vuracaqlar.

Təlimlər “Nar”ın Korporativ Sosial Məsuliyyət strategiyasının təhsil istiqaməti üzrə və Azərbaycan Texnologiya Universiteti ilə əməkdaşlıq çərçivəsində həyata keçirilir. “Nar”ın məqsədi universitetin tələbələrini




əsl peşəkar kimi yetişdirərək Azərbaycanın əmək bazarı üçün mütəxəssis hazırlamaq və ölkənin mobil rabitə sahəsinin inkişafına töhfə verməkdir.

“Nar”ın həyata keçirdiyi təhsilyönümlü sosial layihələr haqqında ətraflı məlumatı operatorun rəsmi saytından (nar.az) əldə edə bilərsiniz.

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Azercell “SHE Congress”in rəqəmsal transformasiya tərəfdaşıdır

“Azercell Telekom” MMC bu il də qadınların liderlik, innovasiya və texnologiya sahəsindəki rolunu təşviq edən “SHE Congress”in rəsmi tərəfdaşı və rəqəmsal transformasiya üzrə dəstəkçisi qismində çıxış edir.

May ayının 22-də Heydər Əliyev Mərkəzində “Bu Gündən Kənar - Gələcəyə Qalanı Yaratmaq” (“Beyond Now - Creating What Lives On”) şüarı altında keçiriləcək tədbir yüzlərlə qadın lideri, sahibkar və peşəkarı bir araya gətirəcək. Konqres iştirakçılara təcrübə mübadiləsi aparmaq, ünsiyyət qurmaq, peşəkar bacarıqlarını inkişaf etdirmək və müxtəlif təşkilatların rəhbərləri ilə tanış olmaq imkanı verəcək.

Korporativ sosial məsuliyyət strategiyası çərçivəsində qadınlara dəstək, onların cəmiyyətdəki rolunun daha da gücləndirilməsi, sosial-iqtisadi rifahının artırılması istiqamətində bir çox sosial layihələr həyata keçirən Azercell tədbirdə xüsusi panel müzakirəsi təşkil




edəcək. Eyni zamanda, şirkətin Hüquq və Data Strategiyası üzrə baş direktoru Şirin Əliyeva konqresin əsas spikerlərindən biri olacaq.

Qeyd edək ki, tədbir çərçivəsində qadınların liderlik və peşəkar bacarıqlarının inkişafına yönəlmiş panel müzakirələri ilə yanaşı, dinamik sessiyalar və seminarlar təşkil olunacaq.

Ətraflı məlumat üçün:
https://www.she-azerbaijan.com/
Qeydiyyat üçün:
https://bit.ly/3RBKrir

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4904
Sifariş: 899
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova